**"Prezidentin diqqət və qayğısı idmançılarda böyük stimul yaradır!"**



6

№ 150 (6591) 23 avqust 2022-ci il. Qiymәti 60 qәpik

# Qalib ölkənin qalib idmançıları ilə görüş!



**İlham Əliyev: "Hər bir ölkə bu səviyyədə oyunları keçirə bilməz"**

2

# Laçın şəhəri, Zabux kəndi: növbədə haradır?

Vaxt Azərbaycan xalqının və dövlətinin səmərəsinə işləyir!



11

Sosial şəbəkələrdə qazilər üzərindən oyun quranlar....



14

Rus ekspert: "Qərb dövlətləri erməni mövqeyini fəal şəkildə müdafiə edir"



15

"Qarabağda yaşayan ermənilər Azərbaycanın vətəndaşlığını alsalar..."



10

# Xaricdə təhsil, yoxsa "beyin köçü"?



7

**Ermənilərin müharibə təlaşı başlayıb: irəli sürülən tələblər artacaq!**

13



**Azərbaycan Ermənistanla sərhəddə yeni yol inşa edir**

# Qalib ölkənin qalib idmançıları ilə görüş!



## *İlham Əliyev: "Hər bir ölkə bu səviyyədə oyunları keçirə bilməz"*

***Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Konyada keçirilən V İslam Həmrəyliyi Oyunlarında Vətənə böyük qələbə ilə qayıdan idmançılarımızı təbrik ediblər.***

**AZƏRBAYCAN İDMANININ YÜKSƏLİŞİ HƏM DƏ DÖVLƏTİMİZİN YÜKSƏLİŞİ DEMƏKDİR**

*"Azərbaycan xalqı sizinlə fəxr edir. Çünki bütün dünyaya bir daha göstərmisiniz ki, Azərbaycan idman ölkəsidir, Azərbaycan idmançıları öz gücü ilə seçilən idmançılardır"*



Dünyada idman ölkəsi kimi tanınan Azərbaycan beynəlxalq idman arenasında artıq özünə layiqli yer tutub. İstər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə bu imicə sahib olub. Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla və mütərəqqi Liderliyi ilə davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq ölkənin bütün sahələrində, eləcə də idman sahəsində böyük nailiyyətlər əldə olunub.

Dünən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Konyada keçirilən V İslam Həmrəyliyi Oyunlarında Vətənə böyük qələbə ilə qayıdan idmançılarımızla görüşü zamanı son dərəcə önəmli fikirlər bildiriblər. Dövlət başçımız bildirib ki, Azərbaycan idmançıları öz gücü ilə seçilən idmançılardır: "Siz bir neçə gün bundan əvvəl Konyadan Vətənə qayıtmısınız, böyük qələbə ilə qayıtmısınız. Ölkəmizin idman şöhrətini bir daha yüksəklərə qaldırmısınız. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm və əldə edilmiş nailiyyətlərlə bağlı sizə öz təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, Azərbaycan xalqı sizinlə fəxr edir. Çünki bütün dünyaya bir daha göstərmisiniz ki, Azərbaycan idman ölkəsidir, Azərbaycan idmançıları öz gücü ilə seçilən idmançılardır".

V İslam Həmrəyliyi Oyunlarında dördüncü yerə layiq görülməyin çox böyük nailiyyət olduğunu vurğulayan dövlətimizin başçısı deyib: "Bu nailiyyət onu göstərir ki, bizim əvvəlki uğurlarımız təsadüfi xarakter daşımırdı. Bildiyiniz kimi, beş il bundan əvvəl Bakıda IV İslam Həmrəyliyi Oyunlarında komandamız birinci yerə layiq görülmüşdür. Bu da təbiidir. Çünki öz doğma divarları həmişə idmançılara əlavə kömək göstərir. Bu dəfə isə çox gərgin mübarizə nəticəsində biz dördüncü yerə layiq görüldük. Onu da bildirməliyəm ki, Oyunlarda ölkələrin ən güclü idmançıları iştirak edirdilər. Bizim idmançılarımız 99 medal qazanaraq, - onlardan 29-u qızıl medaldır, - bir daha ölkəmizin gücünü göstərmişlər. Yəni, bu, doğrudan da böyük nailiyyətdir".

**"İDMANÇILARIMIZIN 19 İDMAN NÖVÜNDƏ MEDALLAR QAZANMASI ÖLKƏMİZDƏ İDMANIN UĞURLA İNKİŞAF ETDİYİNİ GÖSTƏRİR"**

Dövlət başçısı çıxışı zamanı idmançılarımızın 19 idman növündə medallar qazandığını vurğulayaraq bildirib ki, bu da ölkəmizdə idmanın uğurla inkişaf etdiyini göstərir: "Bu da çox sevindirici haldır ki, idmançılarımız 19 idman növündə medallar qazanmışlar. Bu onu göstərir ki, idmanın bir çox növləri ölkəmizdə uğurla inkişaf edir",-deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, birinci yerdə güləşçilərimizdir: "Əlbəttə ki, birinci yerdə, - əgər belə demək mümkündürsə, - güləşçilərdir, 23 medal qazanmışlar, onlardan 8-i qızıl medaldır. Bu da təbiidir. Çünki güləş bizim milli idman növümüzdür və biz güləşdə ənənəvi olaraq uğurlar qazanmışıq. İkinci yerdə gimnastikanın nümayəndələridir. Üç növ gimnastikada idmançılarımız 17 medal qazanmışlar, onlardan 8-i qızıl medal olmuşdur. Üçüncü yerdə qeyri-Olimpiya idman növü - kikboksinq idmançılarıdır. Onların qazandıqları medalların sayı 15-dir. Onlardan 3-ü qızıl medaldır. Yəni, bu, doğrudan da böyük nailiyyətdir. Çünki bu Oyunlarda 50-dən çox ölkə iştirak edirdi və yenə də deyirəm, mübarizə çox gərgin keçib", - deyə dövlətimizin başçısı vurğulayıb.

**"NƏİNKİ BÜTÜN MÜSƏLMAN ALƏMİ, BÜTÜN DÜNYA İDMANÇILARIMIZIN GÜCÜNÜ BIR DAHA GÖRDÜ"**

Prezident İlham Əliyev V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşdəki çıxışında bildirib ki, həmişə olduğu kimi, bu yarışda da bütün dünya idmançılarımızın gücünün şahidi oldu: "Nəinki bütün müsəlman aləmi, bütün dünya idmançılarımızın gücünü bir daha gördü. Hər dəfə Bayrağımız qaldırılanda, Himnimiz səslənəndə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq qürur hissi keçirir və hər qələbə bir daha bizim şöhrətimizi artırır".

Oyunların açılış günündə Konyada idmançılarımızla görüşünü xatırladan dövlətimizin başçısı deyib: "Mən sizinlə Konyada görüş zamanı demişdim ki, sizin üzərinizə əlavə məsuliyyət düşür. Çünki siz bu Oyunlarda qalib ölkəni təmsil edəcəksiniz. Bu, həm çox qürurverici amildir, eyni zamanda, böyük məsuliyyətdir. Bu məsuliyyəti dərk edərək siz ölkəmizi ləyaqətlə təmsil etmişiniz".

Prezident qeyd edib ki, bu Oyunlar qardaş ölkədə keçirildiyi üçün bizim idmançılar özlərini çox rahat hiss edirdilər.

"Hər bir idmançı özünü öz evindəki kimi hiss edirdi. Biz açılış mərasimində onun da şahidi olduq ki, Azərbaycan komandası stadiona daxil olanda bizim türk qardaşlarımız necə səmimi və hərarətlə idmançılarımızı qarşılamışlar. Elə bil ki, bizim komandamız Bakıda stadiona çıxıb. Bu, doğrudan da bir daha bizim xalqlarımızın nə qədər bir-birinə bağlı olduğunu göstərir. Onu göstərir ki, təkcə prezidentlər bir-birinə qardaş deyil, eyni zamanda, xalqlarımız, idmançılarımız qardaşdırlar. Orada - stadionda on minlərlə tamaşaçı Azərbaycan komandasını öz doğma komandası kimi qarşılamışdır", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**"HƏR BİR ÖLKƏ BU SƏVİYYƏDƏ OYUNLARI KEÇİRƏ BİLMƏZ"**

Azərbaycan Prezidenti çıxışı zamanı Türkiyəni, onun idmançılarını həm Oyunların yüksək səviyyədə təşkil olunması, həm də Oyunlarda birinci yer tutması münasibətilə təbrik edib. Və bu Oyunların keçirilməsinin böyük təşkilatçılıq məsələlərini də əhatə etdiyini bildirərək Bakıda keçirilən İslamiadanı xatırladıb: "Xatırlayıram, biz 2017-ci ildə o Oyunları hazırlayarkən bir çox təşkilati məsələləri həll etdik. Hər bir ölkə bu səviyyədə Oyunları keçirə bilməz. Konya Oyunları rəsmən Beşinci İslam Həmrəyliyi Oyunları sayılsa da, əslində, bu Oyunlar cəmi dörd dəfə keçirilib.

Ardı Səh. 3

# Qalib ölkənin qalib idmançıları ilə görüş!



## İlham Əliyev: "Hər bir ölkə bu səviyyədə oyunları keçirə bilməz"

**"Hər dəfə Bayrağımız qaldırılanda, Himnimiz səslənəndə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq qürur hissi keçirir və hər qələbə bir daha bizim şöhrətimizi artırır"**

Əvvəli Səh.2

Birinci Oyunlar Səudiyyə Ərəbistanında, ikinci İndoneziyada, üçüncü Azərbaycanda, dördüncü isə Türkiyədə. Amma rəsmən bu, beşinci Həmrəylik Oyunları sayılır. Yəni, demək istəyirəm ki, Oyunları keçirmək o qədər də asan məsələ deyil və burada Türkiyə tərəfi əlbəttə, çox yüksək qiymətə layiqdir", - deyə dövlətimizin başçısı əlavə edib.

Azərbaycan Prezidenti əmin olduğunu deyib ki, idmançılarımız bu medalları qürur hissi ilə daşıyacaqlar: "Ancaq indi biz gələcəyə baxmalıyıq, bundan sonra Azərbaycan idmanının inkişafı ilə bağlı hansısa addımlar atılmalıdır".

### "SON VAXTLAR BİR NEÇƏ FEDERASİYADA, GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNDƏ BAŞ VERMİŞ DƏYİŞİKLİKLƏR QAÇILMAZ İDİ"

"Siz də yaxşı bilirsiniz ki, son vaxtlar bir neçə federasiyada dəyişikliklər baş verdi. Bu, təbiidir, bu, qaçılmaz idi. Çünki bəzi federasiyalarda mən görürdüm ki, artıq durğunluq hökm sürür, nəticələr əldə edilmir, bəzi idmançılarımız, ümumiyyətlə, beynəlxalq yarışlardan məhrum edilmişlər",-deyən dövlət başçısı vurğulayıb ki, artıq yeni təkana ehtiyac var: "Bu yaxınlarda federasiyalarda və eyni zamanda, Gənclər və İdman Nazirliyində baş vermiş dəyişikliklər əminəm ki, həm idmançılar, həm də idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir, çünki nəticələr göz qabağındadır".

Prezident qeyd edib ki, idmana cavabdehlik daşıyan qurumlar idmançılarla daim bir yerdə olmalıdırlar, hər bir idmançını tanımalıdırlar, onun problemləri ilə məşğul olmalıdırlar: "Mən görürəm ki, edilmiş dəyişikliklər nəticəsində hazırda nəticələr də var və olacaq. Əsas odur ki, Azərbaycanın idman ictimaiyyəti belə mütəşəkkil qüvvə kimi bir nöqtəyə vursun. Hər zaman bu, diqqət mərkəzində olan məsələ idi ki, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri bir nöqtəyə vursunlar, komanda şəklində fəaliyyət göstərsinlər və birlik olsun. Çünki mən 1997-ci ildən Milli Olimpiya Komitəsinin prezidentiyəm və bilirəm, hansı ölkələrdə hansı proseslər baş verir. Bir çox hallarda idmana cavabdehlik daşıyan qurumlar arasında birlik yoxdur, əksinə, ziddiyyətlər var. Bizdə isə bu birlik var və bu, hesab edirəm ki, uğurlarımızın əsas şərtlərindən biridir".



### "İNDİ BÜTÜN İDMAN QURUMLARININ ƏSAS MƏQSƏDİ YAY OLİMPİYA OYUNLARINA HAZIRLIQ OLMALIDIR"

"Əlbəttə ki, peşəkar idmançıları yetişdirmək asan məsələ deyil və məşqçilər, idman mütəxəssisləri çox böyük əmək sərf edirlər, seleksiya işləri çox düzgün aparılmalıdır. Bizim bölgələrimizdə çox böyük istedadlar var, uşaqlar, yeniyetmələr, sadəcə olaraq, onları seçib tapmaq, idmana cəlb etmək lazımdır". Bunu Prezident İlham Əliyev avqustun 22-də V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşü zamanı çıxışında bildirib. Dövlət başçısı deyib ki, bu gün Azərbaycanda idmana və xüsusilə idmançılara olan münasibət əminəm ki, gəncləri, uşaqları da idman bölmələrinə gətirəcək: "Çünki həm idmanla məşğul olmaq üçün şərait var,- təkcə bölgələrdə 50-yə yaxın olimpiya idman kompleksi fəaliyyət göstərir, - biz Bakıda Avropa Oyunlarını, dünya çempionatlarını keçirmişik. Yəni, bütün imkanlar var və idman bölmələrinə gələn uşaqları seçib onları yetişdirmək lazımdır, həm güclü idmançı kimi, həm ləyaqətli vətəndaş kimi. Bu da çox vacib məsələdir. Mən çox



şadam, çox sevinirəm ki, bizim idmançılarımız, ölkəmizi dünyada ləyaqətlə təmsil edən idmançılar məişətdə də nümunəvi davranışla fərqlənirlər. Bu, çox vacibdir. Həm təvazökarlıq, həm Vətənə bağlılıq, milli dəyərlərə bağlılıq, fiziki güc, mənəvi güc. Çünki fiziki güc, necə deyərlər, mənəvi gücü də gücləndirir".

"Hesab edirəm ki, indi bütün idman qurumlarının əsas məqsədi Yay Olimpiya Oyunlarına hazırlıq olmalıdır",-deyən dövlət başçısı vurğulayıb ki, bütün idman qurumları burada öz vəzifə borclarını bilirlər, yaxşı dərk edirlər: "Beləliklə, Yay Olimpiya Oyunlarında biz ölkəmizi ləyaqətlə təmsil edəcəyik. Bir daha sizi ürəkdən təbrik edirəm - bütün komanda üzvlərini, medal qazanmış idmançıları, medal qazana bilməyən idmançıları. Mən onlara da deyirəm ki, peşman olmasınlar, hələ gələcəkdə bir çox yarışlar var. Sadəcə olaraq, Vətənə sevgi, öz peşəsinə sədaqət, yorulmaz fəaliyyət, hazırlıq lazımdır. Çünki hazırlıq olmadan heç bir nəticə olmur, nə siyasətdə, nə idmanda, nə həyatda. Siz artıq bir daha Azərbaycanın şöhrətini ucaltmısınız və necə ki, bu gün bayrağımız Qarabağda, Zəngəzurda dalğalanır, idman arenalarında da dalğalanır, əminəm ki, əbədi dalğalanacaq. Bir daha sizi təbrik edirəm".

Bəli, Azərbaycan idmanının yüksəlişi həm də dövlətimizin yüskəlişi deməkdir. Və bu gün idman sahəsində əldə olunan uğurlar bir daha onu göstərir ki, Azərbaycanda idman uğurla inkişaf edir, Azərbaycan idman dövlətidir və həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər. Və Azərbaycan idmanının yüksəlişi həm də dövlətimizin yüksəlişi deməkdir, çünki bayrağımız ucaldıqda, dövlətimizin nüfuzu daha yüksək zirvələrə doğru ucalır. Bu isə, Prezident İlham Əliyev cənablarının idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda idmanın bütün sahələrinin inkişafı, idmançıların yüksək səviyyədə qayğı ilə əhatə olunması, idman komplekslərinin müasir tələblərə cavab verəcək səviyyədə qurulması, ən əsası isə Olimpiya oyunlarında idmançılarımızın iştirakı üçün xeyli işlər görülmüşdür. Bu gərgin əməyin nəticəsidir ki, Azərbaycan dünyada idman ölkəsi kimi tanınaraq böyük nüfuz qazanıb.

Dövlət başçımızın dediyi kimi: "Hər bir idman qələbəsi, xüsusilə, mötəbər beynəlxalq yarışlarda qazanılmış qələbə ölkəmizdə milli qüruru, milli ruhu yüksəldir. Ona görə idmanın hər bir ölkənin həyatında çox önəmli rolu var".

**RƏFİQƏ KAMALQIZI**



# Rus politoloq:
## “Hər şey döyüş meydanında həll olunacaq!”

### İqor Mintusov: Neftin və qazın qiyməti ucuzlaşmayacaq, əksinə artacaq

**Tanınmış rusiyalı politoloq İqor Mintusov ”Caliber.Az”-a müsahibəsində dünyada gedən prosesləri və iqtisadi bloklaşmanı şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.**




*- Rusiya iqtisadiyyatının sanksiyalar altında yaxın 2 ildə inkişafını necə görürsünüz?*

- Rusiya iqtisadiyyatında sanksiyalarla bağlı təbii ki, resessiya olacaq. İnflyasiya yüksələcək. İnflyasiyanın nə qədər artacağını və iqtisadiyyatda tənəzzülün nə qədər davam edəcəyini proqnozlaşdırmağın mümkünlüyünü güman etmirəm, lakin hökumətin və Mərkəzi Bankın bu prosesin qarşısını almaq üçün göstərdiyi səyləri müsbət qiymətləndirirəm. Və bir şeyi də tam əminliklə deyə bilərəm ki, Qərblə demək olar ki, tamamilə qopmağa və Qərb bazarından təcrid olunmasına baxmayaraq, ölkə iqtisadiyyatı liberal bazar iqtisadiyyatı sistemi olaraq qalacaq, yəni sosialist iqtisadi rejiminə qayıtmayacaq.

*- Bu müddət ərzində Rusiya yeni enerji bazarları tapa biləcəkmi?*

- Bəli, düşünürəm ki, olacaq. Əsasən bunlar BRİKS üzvləri, xüsusən Hindistan və Çin kimi tərəfdaş ölkələr olacaq. Ola bilsin ki, bu yaxınlarda təşkilata üzvlük üçün müraciət edən Argentina da Rusiyanın enerji resurslarını alsın. Bunun Rusiya tərəfi üçün nə qədər faydalı olacağı hələ tam aydın deyil. O da göz qabağındadır ki, Rusiya xammalının alıcıları mövcud vəziyyətdən yararlanmağa və maksimum endirimlərə nail olmağa çalışacaqlar. Beləliklə, şübhəsiz ki, şərqdən olan tərəfdaşlarla sövdələşmələr Qərblə müqayisədə daha az sərfəli olacaq.

*- Rusiyanın Hindistan, Çin, Türkiyə, Cənubi Afrika və digərləri kimi hazırkı tərəfdaşları Qərbin artan təzyiqi altında tərəfdaşlıq münasibətlərini qoruya bilərmi?*

- Düşünürəm ki, Hindistan və Çin kimi böyük dövlətlər Rusiya və Qərb məhsullarının alınması arasında balansı saxlaya biləcəklər, bunun üçün onların kifayət qədər subyektivliyi və siyasi müstəqilliyi var. Türkiyə kimi kiçik ölkələrə gəlincə, bu tarazlığa nail olmaq və ikinci dərəcəli sanksiyaların qurbanı olmamaq üçün manevr etməli olacaqlar. Buna baxmayaraq, Türkiyənin indiki çətin geosiyasi şəraitdə fəal şəkildə bunu etməyə çalışdığını görürük.

*- Görünən odur ki, Ukraynadakı müharibə uzadılır. Sizcə, münaqişə uzandıqca qaz və neftin qiyməti necə dəyişəcək?*

- Neftin qiymətləri ilə bağlı bircə onu deyə bilərəm ki, qiymətlər qətiyyən düşməyəcək. Bildiyiniz kimi, ”Şimal axını 2” bağlanıb və qıtlıq ABŞ-dan və digər alternativ mənbələrdən kütləvi şəkildə mayeləşdirilmiş təbii qaz tədarükünə qədər davam edəcək. Eyni şey neftə də aiddir, çünki Rusiyadan tədarükün şaxələndirilməsinin sürətli təşkili qeyri-mümkündür və illər çəkə bilər, ona görə də neftin qiymətləri də artacaq və ya ən azı düşməyəcək. Üstəlik, Brent markalı neftin qiymətinin formalaşması əsasən Rusiyanın Urals markalı neftinin qiymətindən asılıdır.

*- Ukraynadakı " xüsusi hərbi əməliyyat" postsovet məkanında inteqrasiya layihələrinə necə təsir etdi? Sizcə, Rusiyanın keçmiş Sovet respublikaları ilə münasibətlər daha da yaxınlaşıb, yoxsa əksinə? Mən ənənəvi olaraq Rusiyadan və onun təsirindən uzaqlaşmağa çalışan Baltikyanı dövlətləri nəzərdə tutmuram.*

- Müxtəlif istiqamətlərdə təsirlənmişdir. Məsələn, Qazaxıstan getdikcə bir sıra siyasi məsələlərdə Rusiyaya ”yox” deməyə başlayıb. Belarusa gəlincə, Lukaşenka Ukraynaya qarşı hərbi əməliyyatlara kömək etməklə Rusiya ilə dostluğuna sadiqliyini nümayiş etdirdi və bununla da Avropanın diqqətini özündən yayındıra bildi. Mərkəzi Asiya ölkələri ən yaxın güclü tərəfdaş axtarışı prinsipi ilə hərəkət edirlər. Bu gün bu, Rusiyadır, lakin son zamanlar həm Çin, həm də İran regionda öz rollarını gücləndirməyə çalışırlar. Gürcüstanla münasibətlər son vaxtlar çox pisləşib və bu, aşkar fakta çevrilib.

*- SSRİ-nin yenidən qurulması ideyası Rusiya Federasiyasının rəhbərliyinin beynində yaşayırmı? Bu fikri nə dərəcədə real görürsünüz?*

- Mən SSRİ-nin sosialist dövləti kimi bərpasını görmürəm, lakin keçmiş SSRİ-nin yerində hansısa mədəni, iqtisadi və siyasi xarakterli imperativ Avrasiya ittifaqının bərpası ideyası böyük əksəriyyət üçün elə ideyalardır. Rusiyanın hakim elitasının ideyaları ekzistensial xarakter daşıyır. Hakim elita bunu rusların gələcək nəsilləri qarşısında öz missiyası kimi görür, onların fikrincə, ölkə rəhbərlərinin bu istiqamətdə səylərini yüksək qiymətləndirməlidirlər. Bu layihə nə qədər realdır - hərbi əməliyyatların nəticəsi göstərəcək. Prezident Putinin və onun ətrafının çoxunun deməyi xoşladığı kimi: ”Hər şey döyüş meydanında həll olunacaq!”. Ona görə də neo-imperiya layihəsinin taleyi, o cümlədən indiki məqamda, mən sizə müsahibə verərkən, Ukraynada döyüş meydanlarında həll olunur. Yenə deyirəm, bu ideyanın təşəbbüskarlarının düşündüyü kimi neo-imperiya nə SSRİ-nin coğrafi konturlarını, nə də siyasi quruluşunu təkrar etməyəcək, əksinə, XXI əsrin reallıqlarını nəzərə alan, müasir xüsusiyyətləri daşıyan bir ittifaq olacaq.

*- Qafqazda sülhün bərqərar olmasında və regionun iqtisadi inkişafında Türkiyənin rolunu necə qiymətləndirirsiniz?*

- Türkiyə, şübhəsiz ki, Qafqaz, Suriya, Şimali Afrika və hətta Ukrayna da daxil olmaqla, bir çox regionlarda siyasi təsirini artırıb. Bu, danılmaz faktdır, lakin Türkiyənin regionlara iqtisadi təsiri haqda qiymətləndirmə etmək istəmirəm. Mən bircə onu bilirəm ki, Türkiyə Gürcüstanda və Azərbaycanda ən böyük sərmayədarlardan biridir, amma bildiyimə görə Türkiyənin daxilində bir çox iqtisadi problemlər var, məsələn, qiymətlərin artması, inflyasiya sürətinin artması və s.

# “Ermənistanın terrorçu əməllərinə, təxribatlarına son qoyulmasa...”

**“Ermənistan terrorçu əməllərini, təxribatlarını hələ də davam etdirir. Laçın şəhərindən, Zabux və Sus kəndlərindən çıxmaları üçün burada qanunsuz məskunlaşan ermənilərə vaxt verilsə də, onlar xislətlərinə uyğun olaraq imkanları çatan qədər ziyan verməklə, evləri və meşələri yandırmaqla kimliklərini təsdiq edirlər”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.**

Onun sözlərinə görə, 1992-ci ildə Ermənistan silahlıları terrorçu dəstələrlə birgə azərbaycanlıları öz isti ocaqlarından zorla qovanda onlara bir saat da vaxt vermədilər: ”Amma biz avqust ayının əvvəlindən ermənilərə qanunsuz məskunlaşdıqları evləri tərk etmələri üçün vaxt vermişdik. Bu, Azərbaycanın humanistliyi, insanpərvərliyidir. Ermənilər isə bunu qarşılığını vandallıqla verirlər. Son iki gündə iki əsgərimizin Laçının işğaldan azad edilmiş ərazilərində minaya düşməsi də erməni terrorunun iç üzünü göstərir. Azərbaycan tərəfi dəfələrlə mina xəritələrinin verilməsi təşəbbüsü ilə çıxış edib. Müxtəlif görüşlərdə bu məsələni qaldırıb. Amma Ermənistan ən yaxşı halda qeyri-dəqiq xəritələr verib. Bununla da çoxsaylı insan ölümünə bais olub. Burada beynəlxalq təşkilatların da günahı az deyil. Ermənistana münasibətdə ritorikamızı dəyişməyə, bu ölkə ilə sülh şəraitində yaşamağa çağırış edən bu ölkələr və təşkilatlar eyni mövqeni rəsmi İrəvana qarşı göstərmirlər. Əgər dünya birliyi həqiqətən regionda sülhün bərqərar olmasını istəyirlərsə, ilk olaraq Ermənistanın təxribatçı əməllərərini dayandırmalıdırlar, İrəvanı buna məcbur etməlidirlər, onu silahlandırmamalıdırlar, separatçılığın çiçəklənməsinə göz yummamalıdırlar. Nə qədər ki, Ermənistan silahlanır, Qarabağdakı separatçıları dəstəkləyir bölgədə həyat normallaşa bilməyəcək”.







***Arzu Qurbanlı***

# Brüssel-Moskva, Moskva-Brüssel...

## Yaxud, toplananların yeri dəyişilsə də, cəm dəyişmir








ANALİTİK

**Avqustun əvvəlində Qarabağda yaşanan eskalasiya və Bakı tərəfindən irəli sürülən sonuncu xəbərdarlıqlar, daha dəqiq desək, ultimatum faktı nəticə etibarı ilə Ermənistan-Azərbaycan gündəmində dinamiklik yaratdı. Artıq bir sıra nəticələr əldə olunub:**

-Avqustun 25-də yeni Laçın yolunun istifadəyə verilməsinə bir neçə gün qaldı;

- Azərbaycan Prezidentinin Qarabağda qalmış Ermənistan silahlı qüvvələrinin ərazilərimizdən çıxarılması və Zəngəzur dəhlizinin açılması istiqamətində daha dəqiq razılaşmaların əldə olunması;

- Ermənistanın təhlükəsizlik şurasının sədrinin sülh danışıqlarında "status" mövzusundan imtina etməsi;

- Azərbaycan və Ermənistan liderlərinin şəxsi nümayəndələrinin Brüssel görüşü;

- Avqustun sonunda Moskvada üçtərəfli görüşün keçirilməsi haqqında informasiyanın yayılması. Belə ki, Rusiya XİN yüksək səviyyəli görüşün keçiriləcəyini bəyan edib, Ermənistan və Azərbaycan KİV-ləri isə liderlərin görüşlərinin həm Moskvada, həm də Brüsseldə keçiriləcəyini yazırlar.




### Və belə bir sual yaranır: burada və indi həll ediləcək məsələlər hansılardır?

Məhz bu sual əsaslıq təşkil edir, belə ki, üçtərəfli bəyanatın imzalanmasından 2 ilə yaxın müddət keçsə də, bir sıra mühüm öhdəliklər (Ermənistan tərəfindən) yerinə yetirilməmiş qalıb. Bu baxımdan, görüş(lər) bilavasitə Bakının diktəsi altında keçiriləcək və ən əsası, digər məsələlərlə yanaşı, başda Zəngəzur dəhlizinin istifadəyə verilməsi tələbi dayanacaq. Dəhlizin maneəsiz keçilməsinin müəyyən edilməsi isə Laçın dəhlizinə giriş-çıxış rejiminin necə olması ilə dəqiqləşdiriləcək. Təbii ki, ən mühümü Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasıdır!

Lakin daha bir maraqlı məqam görüşlərin harada keçirilməsi yeridir. Moskva üçün vacib olan üçtərəfli bəyanatda qeyd edilən blokadadan çıxma tələbinin yerinə yetirilməsidir. Üstəlik, Rusiya hökumətlərarası komissiyanın təkibində yer alır.

### Bakı və İrəvan danışıqlar məkanını differensiyalaşdırmırlar

Əlavə və əsas məqam əlbəttə ki, Qarabağda qalmış qanunsuz erməni silahlılarının çıxarılmasıdır. Azərbaycan məhz bu ayın əvvəlində sübut etdi ki, onun üçün bir nömrəli məsələ budur..! Təbii ki, Ermənistanın da qarşısında bir nömrəli məsələ dayanır - Bakıda saxlanılan diversantların geriyə qaytarılması. Bu kimi məsələ isə üçtərəfli bəyanat əsasında aparılan danışıqlar atmosferinə öz neqativ təsirini göstərir.

Brüssel üçün sülh razılaşması vacibdir, hansı ki, bu amil üçtərəfli bəyanat öhdəliyində məsuliyyət kimi qoyulmayıb. Daha dəqiq desək, bu mövzuda həm Rusiya, həm də Avropa İttifaqı intentik mövqeyə malikdirlər. Ona görə də Brüssel görüşü məhz bu kontekstdə əhəmiyyət daşıyır.

Onu da qeyd etmək yerinə düşərdi ki, Bakı və İrəvan danışıqlar məkanını differensiyalaşdırmırlar. Hər iki tərəf üçün danışıqlar məkanı əlverişlidir və bu da doğru seçimdir. Belə ki, bu cür mürəkkəb prosesdə hər bir vasitəçi üçün ayrı-ayrılıqda monopoliyalaşdırılmış sahələrin, mövzuların yaradılması prosesin irəliləməsinə imkan verə bilməz. Misal üçün, Rusiya 2021-ci ilin ortalarında vasitəçilik missiyasını unutmuşdu, Avropa İttifaqı isə 2022-ci ildə ciddi səhvə yol verməsi ilə "status" haqqında ciddi nöqsana yol verdi və bu kimi monopoliya cəhdləri hər iki tərəfə zərərlidir.

### Bu məsələlərin harada, hansı vasitəçilərin dəstəyi ilə həll olunacağı isə mühüm olsa da prinsipial deyil

Beləliklə, bizi dinamik proseslər gözləyir və bu proseslər sülh gündəmini aktuallaşdırır. Artıq Ermənistan da analamalıdır ki, təxribatlara yol verməklə o heç nəyə nail ola bilməyəcək. Azərbaycan üçün isə dinamikanı saxlayaraq qarşıda dayanan məsələləri həll etmək missiyası dayanmaqdadır - Qarabağın demilitarizasiyası, Zəngəzur dəhlizinin istifadəyə verilməsi və yeni Laçın yolunun, həmçinin dəhlizinin hansı istiqamətdə təqdim edilməsi. Bu məsələlərin harada, hansı vasitəçilərin dəstəyi ilə həll olunacağı isə mühüm olsa da prinsipial deyil. İstər Brüssel olsun, istərsə də Moskva - necə deyərlər, toplananların yerləri dəyişilsə də, cəm dəyişmir. Yəni prinsipial olan üçtərəfli bəyanatda əks edilən bəndlərin icrasıdır.

*Rövşən RƏSULOV*

# “Prezidentin diqqət və qayğısı idmançılarda böyük stimul yaradır!”

**Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunları başa çatıb. Azərbaycan yarışı 99 medalla bitirib və 4-cü pillədəki mövqeyini qoruyub. Yarış ərzində Azərbaycan idmançıları 29 qızıl, 36 gümüş və 34 bürünc əyarlı medallar qazanıblar. İlk 3 sırada medal əyarında müvafiq olaraq, Türkiyə, Özbəkistan və İran qərarlaşıb. Sonrakı yerləri Azərbaycan və Qazaxıstan tamamlayıb. İndiyədək ümumilikdə 56 ölkədən 44-ü medal qazana bilib. Cənab prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva Konayda keçirilən İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanan idmançılarla görüşüb. Görüş zamanı cənab Prezident onları təbrik edərək, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. SİA mövzu ilə əlaqədar olaraq Prezidentlə keçirilən görüşdə iştirak edən idmançılar arasında sorğu keçirib.**



*Prezidentlə görüşən idmançılar fikirlərini -*

**SİA İLƏ BÖLÜŞÜBLƏR**

**Yunan-Roma Güləşi üzrə qızıl medal qazanan Rafiq Hüseynov**: ”Cənab Prezidentlə görüş biz idmançılara hər zaman xoş təsir bağışlayır. Həmçinin, bu kimi görüşlər bizim işimizə daha məsuliyyətli yanaşmağımıza, eyni zamanda, uğur qazanmağımıza yardımçı olur. Çünki biz idmançılar hiss edirik ki, Prezidentimiz bizə nə dərəcədə diqqət ayırır, biz də bunun qarşılığı olaraq ölkəyə qələbə qazandırmalıyıq. Mən İslam Oyunlarından öncə cənab Prezidentlə görüş zamanı vurğulamışdım ki, sizinlə görüşmək bizə böyük bir ruh yüksəkliyi verir. Bu



ruh yüksəkliyi də yarışda özünü göstərdi. Bizim idmançılarımız məhz bu səbəbdən ölkəmizə 99 medalla qayıtdılar. Təbii ki, qızıl medal qazananlar sırasında mən də varam. Mən və eyni zamanda komanda yoldaşlarım başa düşürdü ki, dövlətimizin adını uca etmək və uğur qazanmaq üçün əlimizdən gələni etməliyik. Əlbəttə ki, biz bunu öz nəticələrimizlə sübut edib, bir daha bütün dünyaya öz gücümüzü göstərdik. İslam Oyunları qardaş Türkiyədə keçirilirdi. Bu yarışda təbii olaraq, əsas hədəfimiz birinci yerə çıxmaq idi. Lakin elə alındı ki, biz 4-cü yerlə kifayətləndik. Fikrimcə, bu, böyük nəticədir. Çünki İslam Həmrəyliyi Oyunlarında 54 ölkədən çıxış edən idmançılar var idi. Konyada təşkil olunmuş bu yarışlarda əməyi və əziyyəti keçən bütün təşkilatçılara da öz təşəkkürlərimizi bildiririk. Gənclər və İdman Nazirliyi də bizim yaxşı çıxış etməyimiz üçün çox dəstək oldular. Şəxsən Fərid Qayıbovun özü oyunlarda daim bizim yanımızda oldu və bizi tək qoymaraq, problemlərimizlə maraqlanırdı”.

**Yunan-Roma güləşi üzrə qızıl medal qazanan Həsrət Cəfərov:** ”Cənab Prezident Konyada keçirilən İslam Həmrəyliyi Oyunları zamanı da bizimlə görüşmüşdür. Həmin görüş zamanı da Ali Baş Komandan qeyd etmişdi ki, sizin üzərinizə daha da böyük məsuliyyət düşür. Çünki siz qalib ölkəni təmsil edirsiniz. Təbii ki, oyunlardan öncə cənab Prezidentin diqqət və qayğısını hiss etmək bizə böyük stimul verir. İslam Həmrəyliyi Oyunları zamanı da çalışırdıq ki, qızıl medal qazanaraq, bayrağımızı qaldıraraq, himnimizi səsləndirək. Çox şükürlər olsun ki, belə də oldu. Bu gün də cənab Prezident bizi bir daha qəbul etdi. Bu, bizim üçün qürurverici bir hissdir. Cənab Prezident görüş zamanı oyunları izlədiyini və hakim haqsızlığına şahid olduğunu bildirdi. Həqiqətən də hakim haqsızlığı çox idi. Mənə qarşı da hakimlər haqsızlıq edirdilər. Lakin bütün bunlara baxmayaraq mən yenə də qalib oldum və qızıl medal qazandım. Görüş bitəndən sonra da cənab Prezident mənə yaxınlaşaraq, çıxışımı izlədiyini bildirdi və məni təbrik etdi. Təbii ki, bu, mənim üçün çox xoş oldu ki, ölkə başçısı şəxsən məni özü təbrik etdi”.



**Sərbəst güləş üzrə Avropa çempionu Əliabbas Rzazadə:** ”Cənab Prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanan idmançılarla görüşdü. Ölkə başçısının idmançılara göstərdiyi diqqət və qayğı göz önündədir. İlham Əliyev bizimlə yarışdan öncə də görüşmüşdür. O zaman da Prezident bizə inandığını və qələbə qazanacağımıza inandığını bildirdi. Şükürlər olsun ki, biz cənab Prezidentin ümidlərini doğrultduq. Sərbəst güləş üzrə 8 qızıl, 8 gümüş və 7 bürünc medal qazandıq. Çox sevinirəm ki, komandanın qələbə qazanmasında mənim də payım var. Mənim əsas məqsədim qızıl medal qazanmaq idi. Bundan öncə İtaliyanın paytaxtı olan Romada keçirilən yarışda da qalib olmuşdum. İslam Həmrəyliyi Oyunları mənim üçün yaddaqalan oldu. Qarşıdan bizi Dünya Çempionatı gözləyir. Bilirəm ki, Dünya Çempionatında uğurlar əldə edəcəyik. Bütün medal qazanan idmançıları təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzu edirəm”.



**Yunan-Roma güləşi üzrə qızıl medal qazanan Eldəniz Əzizli:** ”Bizim üçün Konyada keçirilən V İslam Həmrəyliyi Oyunları önəmli yarışlardan biridir. Əsas hədəfimiz qızıl medal qazanmaq idi. Allaha şükürlər olsun ki, komanda yoldaşlarım çempion oldu. Yekunda komanda hesabında güləş üzrə ən yaxşı komanda Azərbaycan seçildi. Təbii ki, bu, insana böyük qürur verir. Ümumu yarış səviyyəsi çox yaxşı idi. Başda cənab Prezident İlham Əliyevə öz minnətdarlığımı bildirirəm. Ali Baş Komandan hər zaman olduğu kimi, bizi tək qoymadı və öz diqqətini, qayğısını hiss etdirdi. Gənclər və İdman naziri Fərid Qayıbova, eyni zaman bütün nazirliyin kollektivinə təşəkkürlərimi bildirirəm. Bizim orada yaxşı çıxış etməyimiz üçün əllərindən gələni edirdilər. Bu gün də Cənab Prezident və ölkənin birinci xanımı Mehriban Əliyeva İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanan idmançılarla görüşdü. Təbii ki, cənab Prezidentin idmana göstərdiyi diqqət və qayğı hər kəsə məlumdur. Biz oyun öncəsi və qələbə sonrası ölkə başçısı ilə görüşdüyümüz zaman böyük qürur hissi keçiririk”.



***Banuçiçək Hüseynli***

# Xaricdə təhsil, yoxsa ”beyin köçü”



**Müasir dövrün ən başlıca tələbi təhsildir. Yalnızca haradasa işləmək və ya maddi qazanc əldə etmək üçün yox, dünyadakı prosesləri düzgün qiymətləndirə bilmək, ümumi dünyagörüşünün formalaşması üçün də təhsil əvəzolunmaz bir faktordur. Sabahını müəyyənləşdirmək istəyən hər bir gənc düzgün təhsilin bunun üçün necə önəmli olduğunu bilir. Burada təkcə əsas məsələ məhz təhsil almaq deyil, həmçinin düzgün ixtisas seçimi də vacib olur. Ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər düzgün ixtisas seçərək yaxşı nəticə əldə edə bilirlərmi? SİA mövzu ilə bağlı araşdırma aparıb.**

Dövlət İmtahan Mərkəzi tərəfindən keçən il ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının nəticələrini nəzərdən keçirək: Müsabiqənin nəticələrinə əsasən, 44861 nəfər (o cümlədən 6810 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 21856 (o cümlədən 920 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 23005 (o cümlədən 5890 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

Qeyd olunan rəqəmləri ötən ilin müvafiq məlumatları (I mərhələdən sonra qəbulun nəticələri) ilə müqayisə etsək, bu il tələbə adını qazananların sayının daha da artmasını müşahidə edə bilərik. Ötən ilə nisbətən bu il tələbə olanların sayı 2130 nəfər daha çoxdur. Bu il dövlət sifarişi əsasında qəbul olunanların sayı da ötən ilki göstəricidən 1057 nəfər çoxdur. Keçən il, həmçinin qəbul olunan subbakalavrların sayı da 1025 nəfər daha çoxdur. I mərhələdən sonra I ixtisas qrupu üzrə 13.2%, II ixtisas qrupu üzrə 14.59%, III ixtisas qrupu üzrə 1.32%, IV ixtisas qrupu üzrə 9.87%, V ixtisas qrupu üzrə isə 9.54% plan yeri boş qalıb. I və II ixtisas qrupu üzrə boş qalan plan yerlərinin sayının (müvafiq olaraq 2040 və 1971 yer) daha çox olacağı əvvəlcədən məlum idi. Belə ki, müsabiqə şərtlərini (ümumi 200, imtahanının 2-ci mərhələsi üzrə 100 bal) ödəyən və ixtisas seçiminə buraxılanların sayı mövcud plan yerlərinin sayı ilə müqayisədə az idi.

Ən gərgin müsabiqə vəziyyətinin III qrupda formalaşacağı proqnoz edilmişdi. Nəticələrdən də görürük ki, bu qrup üzrə plan yerləri 98.68% dolub və cəmi 169 yer boş qalıb. IV qrupda da müsabiqə iştirakçılarının sayı plan yerlərindən az idi. Burada boş qalan yerlərin sayı 391, xüsusi qabiliyyət tələb edən V qrupda isə 161 yerdir.

I ixtisas qrupu üzrə müsabiqədə iştirak edib ali təhsil müəssisələrinə qəbul olmayan abituriyentlərin imtahan ballarının paylanması haqqında məlumata baxdıqda görürük ki, ümumi balı 200-dən və imtahanının ikinci mərhələsi üzrə balı 100 az olmayan cəmi 8 abituriyent ali təhsil müəssisəsinə qəbul ola bilməyib. Onlar boş qalan yerlərin müsabiqəsinə qoşula bilərlər. 150 və 50 bal şərtini ödəyib qəbul ola bilməyənlərin sayı isə 2068 nəfərdir. Lakin həmin ixtisaslar (abituriyentlər şərti olaraq 150 ballıq ixtisaslar deyir) üzrə plan yerləri tam dolub və bu abituriyentlər müsabiqə şərtlərinə əsasən boş qalan plan yerlərinin seçimində iştirak edə bilməzlər.

II ixtisas qrupunda 200 və 100 ballıq şərtləri ödəyib qəbul ola bilməyənlərin sayı 37, 150 və 50 bal şərtini ödəyənlərin sayı isə 69 nəfərdir. Bu abituriyentlərin hamısının ikinci turda iştirak edib qəbul olunmaq şansları hələ də var.

III ixtisas qrupu ümumi balı 200-dən və imtahanının ikinci mərhələsi üzrə balı 100 az olmayan 557 abituriyent ali təhsil müəssisəsinə qəbul ola bilməyib. Həmin şəxslər boş qalan yerlərin (169 yer) müsabiqəsinə qoşula bilərlər. 150 və 50 bal şərtini ödəyib qəbul ola bilməyənlərin sayı isə 1680 nəfərdir. Lakin həmin ixtisaslar üzrə də plan yerləri tam dolub və bu abituriyentlər müsabiqə şərtlərinə əsasən boş qalan plan yerlərin seçiminə buraxılmırlar.

IV ixtisas qrupu üzrə müvafiq göstəricilər 81 və 90 nəfərdir. Burada isə 81 nəfərlə yanaşı 90 nəfərin də müəyyən ixtisaslar üzrə boş qalan yerlərin müsabiqəsində iştirak etmək imkanları var.

Ayrıca ali təhsil müəssisələrinə gəldikdə I mərhələdən sonra tələbə qəbulu aparılan 42 ali təhsil müəssisəsinin 4-də plan yerləri 100 %, 15 ali təhsil müəssisəsində 90%-dən, 17 ali təhsil müəssisəsində isə 80%-dən çox dolub. Ümumiyyətlə, qəbul aparılan ixtisasları xüsusi qabiliyyət tələb edən Bakı Xoreoqrafiya Akademiyası istisna olmaqla, digər ali təhsil müəssisələrinin plan yerləri 75%-dən çox dolub.

Subbakalavrlarla bağlı qeyd edə bilərik ki, onlar 36 müxtəlif ali təhsil müəssisəsinə qəbul oluna biliblər. Qəbul olunan subbakalavrlar say etibarilə daha çox Azərbaycan Texniki Universitetinə (750 nəfər), Azərbaycan Dövlət İqtisad Universitetinə (530 nəfər) və Bakı Biznes Universitetinə (474 nəfər) qəbul olunub. Ali təhsil müəssisələrinin qəbul planı və onların dolma faizinə baxdıqda isə Bakı Biznes Universitetinə qəbul olunanların 52.38%-nin, Azərbaycan Texnologiya Universitetinə qəbul olunanların 49.47%, Əmək və Sosial Münasibətlər Akademiyasına qəbul olunanların 40.33%-nin subbakalavrlar olduğunu görərik.

## Əvvəlki illərə nisbətən bu il keçirilən ali təhsil müəssisələrinə qəbul imtahanı nə ilə fərqlənir?

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov** SİA-ya açıqlamasında bildirib ki, artıq ali təhsil müəssisələrinə ixtisas seçimi başlanılıb: ”Bu il xeyli gərgin vəziyyət müşahidə olunmaqdadır. Xüsusilə, birinci və dördüncü ixtisas qrupuna aiddir. Birinci ixtisas qrupunda keçid balları əvvəlki illərlə müqayisədə bu il keçid ballarında artım var. Bu il 500 baldan yuxarı toplayan abituriyentlərin sayı xeyli artıb. Bu da əlbəttə ki, onu deməyə əsas verir ki, bu statistika keçid ballarına təsir göstərəcək. Dördüncü ixtisas qrupunda tibbi ixtisasda plan yerləri azalıb. Düşünürəm ki, bu, qəbul prosesində ciddi təsir göstərəcək. Rəqabət daha da çox olacaq.



Üçüncü ixtisas qrupunda vəziyyət normaldır. Əvvəlki illərə nisbətən bu il balların aşağı düşməsi müşahidə olunur. Üçüncü ixtisas qrupunda abituriyentlər ixtisas seçimi zamanı problem olmayacaq. İkinci ixtisas qrupunda isə elə də dəyişilik yoxdur. Əvvəlki illərlə müqayisədə ballarda dəyişiklik yoxdur. Ümumilikdə əlbəttə ki, ixtisas seçimi çox mühüm mərhələdir. Bu baxımdan abituriyentlər, valideynlər və müəllimlər çox diqqətli olmalıdır”.

SİA bu il keçirilən ali təhsil müəssisələrinə qəbul imtahanında iştirak edən abituriyentlərin fikirlərini öyrənib:

Birinci ixtisas qrupunu seçən abituriyent Amin Süleymanovun sözlərinə görə, keçən ilə nisbətən bu il imtahan çətin idi: ”İmtahanda az bal yığdım. Amma düşünürəm ki, topladığım bal istədiyim ixtisasın balına uyğundur”.

Üçüncü ixtisas qrupunu seçən abituriyent Ayla Eyvazlı bildirib ki, bu il üçüncü ixtisas qrupuna aid olan ixtisasların keçid balları bir qədər aşağıya düşüb: ”İxtisas seçimi zaman topladığım bala uyğun ixtisasları seçdim. Ümid edirəm ki, istədiyim ixtisasa qəbul olacam”.

Birinci ixtisas qrupunu seçən abituriyent Orxan Vəliyev qeyd edib ki, bu il keçirilən qəbul imtahanı çətin idi: ”İxtisas seçimini düzgün etdiyimi düşünürəm. İxtisas seçimi zamanı müəllimim və valideynlərim mənə çox kömək oldu”.

## Bəs, abituriyentlər ixtisas seçimində nələrə diqqət etməlidir? Burada valideynin rolu nədən ibarətdir?

**Psixoloq Aytən Ələkbərova** bildirib ki, təəssüflər olsun ki, abituriyentlər ixtisas seçimində onlardan çox valideynlərinin müdaxiləsi valideyn-uşaq arasında münaqişənin yaranmasına gətirib çıxardır: ”Övladlarımız öz istədiyi başqa ixtisası seçirlər. Amma valideyn başqalarının təkidilə övladlarını başqa ixtisasa yönəldirlər. Müasir dövrün gəncləri bu gün onlar ixtisas seçimi zamanı yanlış addımlar atmırlar. Bəzi abituriyentlər tərəddüddə qalırlar. Amma onlara biz ixtisas seçimi zamanı lazımi köməkliyi etdik. Daha çox valideynlə övlad bir-birini anlamalı və ortaq məxrəcə gəlib qərar verməlidirlər”.



Gənclər ali təhsil, yaşamaq və çalışmaq üçün digər ölkələrə üstünlük verirlər. Çox zaman təhsil aldıqdan sonra olduqları ölkədə qalıb çalışır, Azərbaycana qayıtmaq istəmirlər. Qısacası, bu ”beyin axınının” sonu heç də yaxşı görünmür. Hər halda bunun səbəbi o gənclərlə bağlı deyil.

## Bəs, gənclərin xaricə üstünlük verməsinin səbəbləri nələrdir?

**Tənqidçi ekspert Aydın Xan Əbilovun** sözlərinə görə, Azərbaycanda milli təhsildə çox böyük problemlər var: ”Təəssüflər olsun ki, təhsilimizin keyfiyyəti müstəqillik dövründə dəfələrlə aşağı düşüb. Bir neçə ali təhsil ocağı var ki, onlar öz prestijini qaldırmaq üçün çoxlu islahatlar apardılar, yeniliklər etdilər. Amma orta məktəb təhsil sistemindəki olan problemlər, hətta bu universitetlərin keyfiyyətinə, təhsil texnologiyalarına çox mənfi təsir göstərir. Abituriyentlərin xarici universitetlərə üz tutmasını normal qarşılamaq lazımdır. Çünki kiçik bazara malik olduğumuza görə, təhsil sistemimizin bu vəziyyətini normal qarşılamalıyıq. Azərbaycan universitetlərinin səviyyəsi dünya universitetlərinin səviyyəsindən qat-qat aşağı olduğuna və Azərbaycanda ali məktəbə qəbul sistemində çox böyük manelər olduğuna görə, gənclər xarici universitetlərə üz tuturlar. Düşünürəm ki, Azərbaycanda qəbul prosesini sadələşdirmək lazımdır. Əgər müəyyən dəyişikliklər olmasa yenə də gənclərimiz Rusiyada, Gürcüstanda, Ukraynada və digər ölkələrdə universitet oxumaq adı ilə gedəcəklər. Bildiyimiz kimi, gənclər orada mənfi hallarla rastlaşırlar. Onların narkotikə qurşanması, xarici təsirlərə düşməsi kimi mənfi hallarla rastlaşırıq və bunun qarşısının alınması üçün Azərbaycandakı təhsil sisteminin keyfiyyətini qaldırmaq, təhsildə yüksək standartları əldə etmək, bu standartlara cavab verən normativ aktlar qəbul etmək və ən əsası isə qəbul imtahanını sadələşdirmək lazımdır”.



Elə sahələr var ki, onun üçün xaricdə təhsil almağa ehtiyac yoxdur, xaricdə təhsil alanların isə ölkəmizin sosial-iqtisadi həyatına yönləndirilməsi daha vacibdir.

Hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı tələbələrin sayı 40 minə yaxındır. Onlardan 15 mini qardaş Türkiyədə, 20 mindən çoxu Rusiya, Ukrayna, Gürcüstan universitetlərində təhsil alır. Xarici ölkələrdə təhsil almaq üçün gedənləri əsasən bir neçə qrupa bölmək olar. Onlardan biri Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında topladıqları ballar burda ali məktəblərə qəbul olmağa imkan verməyənlərlədir ki, bunların sayı hədsiz dərəcədə çoxdur. Bu kateqoriyaya aid olan şəxslər daha çox Ukrayna, Rusiya, Dərbənd, Dağıstan, Gürcüstan kimi ölkələrin universitetlərində təhsil almağa üstünlük verirlər. Səbəb isə odur ki, bu universitetlərdə hətta prestijli ixtisaslarda təhsil alsalar belə, qeyri-qanuni yollarla təhsillərini başa vura biləcəklər. Bu ölkələrdə təhsil almağa gedənlərin əksəriyyəti hüquq, maliyyə-iqtisadiyyat kimi ixtisaslara daha çox üstünlük verirlər. Əsasən yeni nəsil daha yüksək məvacibli iş olan ölkələrdə yaşamaq və təhsil almaq istəyir.

Azərbaycandan isə ”beyin köçü”ndə 2012-2013-cü illərdə artım müşahidə edilib. 2014 və 2015-ci illərdə səngiyən proses devalvasiyadan sonra yenidən sürətləndi. Analitiklər gedişatı həm də sosial-iqtisadi vəziyyətin çətinləşməsi ilə əlaqələndirirdilər. Avropa, Amerikaya, hətta Şərqi Avropa ölkələrinə - Polşa, Macarıstan, həmçinin Rusiya, Ukraynaya gedənlər var. Xüsusən yeni nəsil daha yüksək məvacibli iş olan ölkələrdə yaşamaq və təhsil almaq istəyir.

Təkcə ötən il ”green card”la qalib gələrək ABŞ-a gedənlərin siyahısına nəzər yetirəndə daha çox 1985-1994 təvəllüdlü gənc vətəndaşlara rast gəlinir.

## Bəs, digər ölkələrdə vəziyyət necədir?

Rusiyada yaşı 24-ə qədər olan gənclərin 40 faizi öz vətənində yaşamaq və işləmək istəmir. Bunu ölkədəki siyasi-iqtisadi şəraitlə izah edirlər.

2020-ci ildə əhali sayına görə dünyanın ən savadlı 10 ölkəsinin statistikası ilə tanış olaq:

Norveç - 43.21%
Finlandiya - 44.30%
Avstraliya - 45.36%
İrlandiya - 45.66%
Böyük Britaniya - 45.74%
Amerika Birləşmiş Ştatları - 46.36%
Cənubi Koreya - 47,74%
İsrail - 50.92%
Yaponiya - 51.44%
Kanada - 56.71%

Qeyd edək ki, 2020/2021-ci tədris ilinin əvvəlinə xarici ölkələrdə dövlət xətti ilə təhsil alan tələbələrin sayı 975 nəfər təşkil edib. Xaricdə təhsil alan gənclərin 37,5 faizi Bakı, 62,5 faizi isə Azərbaycanın müxtəlif regionlarında yerləşən məktəblərin məzunlarıdır. Tələbələrin əksəriyyəti Macarıstan, Türkiyə, Rusiya, Çin, Latviya və Birləşmiş Krallığın ali təhsil müəssisələrində təhsil alır.

***Arzu Qurbanlı***

# 150 ballıq təhsil, yoxsa yaxşı bir peşə?..




**10-15, bəlkə də 20 ilə yaxın zaman kəsiyində həyatımızda dəyişən çox məqamlar var. Onlardan ən başlıcası və təhlükəlisi isə ali təhsil almağın artıq ölkəmizdə dəb xarakteri almasıdır. Və dəhşətli haldır ki, illərdir, bu dəb özünü qoruyub saxlayır, gündəmdən düşmür ki, düşmür. Maraqlıdır, görəsən bu məsələni kim atdı ortaya, necə oldu ki, ali təhsil almaq bir dəbə çevrildi? Nə üçün hər kəs ali təhsil almalıdır? Valideynlər nə üçün dəridən-qabıqdan çıxıb övladlarının təhsil alması üçün əllərindən gələni edirlər? Burada maraq nədir? Onları buna vadar edən səbəblər nədən qaynaqlanır? Bu və ya bu kimi sualların cavabını bu yazıda açmağa çalışacaq, ali təhsilinmi, yoxsa bəzi hallarda yaxşı bir peşənin sahibi olmağın hansının üstün olduğundan söhbət açacağıq.**

## Qonşu qonşuya baxar...

Bəli, yuxarıda da vurğuladığım kimi, artıq 10-15 ildir ki, valideynlər övladlarını yalnız ali təhsilli görmək istəyirlər. "Qonşudan geri qalma" prinsipi artıq təhsil məsələsinə də sirayət edib. "Nə üçün filankəsin uşağı təhsil alsın, mənimki yox?", "Nəyi səndən artıqdır, Allah iki göz ona, ikisini də sənə verib, əziyyət çək oxu", "O filankəsin uşağı, bu da sən", "Nəyin kimdən əskikdir, oxu da" kimi tənələrlə övladlarımıza qənim kəsilirik. Deyinə-deyinə onları oxumaqdan bezdirir, istəməyərək hazırlıqlara göndərməklə müxtəlif fənlərə qarşı nifrət yaradırıq. Uşaq gəlib deyir ki, ay ata, ay ana mən riyaziyyatı ( tək riyaziyyatdan söhbət getmir, ana dili, xarici dil, tarix, kimya, fizika, coğrafiya və sair fənlərdən hər hansı biri olsun) qavramıram. Biz nə edirik? Dərhal hazırlıq müəllimi tapır, uşağı onun yanına göndəririk ki, hökmən öyrənməlisən. Düzdür, bu, valideynlik borcumuzdur. Etməliyik və edirik də. Lakin müəllim də bu uşağın riyaziyyatı qavramadığını, hazırlığın nəticəsi olmayacağını deyədeyə biz bunu davam etdiririksə, deməli, uşağımıza hörmət etmirik, eyni zamanda qazandığımız pulun da qədrini bilmirik.

Düşünürük ki, eşi, uşaqdı da, get-gedə qavrayacaq, öyrənəcək. Hələ bir-iki ay da getsin hazırlığa, görək də. Lakin aylar keçir, heç bir irəliləyiş olmur. Biz isə hələ də ümidlə gözləyirik ki, nə vaxtsa övladımız riyaziyyatı öyrənəcək, ali məktəblərə qəbul imtahanında uğur əldə edib ali məktəbə daxil olacaq, tələbə adını qazanacaq, biz də qohum və qonşuların yanında qürrələnəcəyik ki, uşağımız ali məktəbə daxil olub.

Necə ki, illərlə "qonşu qonşuya baxar, canını odlara yaxar" deyimi ilə çiyinlərimizi götürə biləcəyindən artıq yükün altına vermişik, indi də uşaqlarımızı davamçımız etməkdəyik. Qonşu ev tikdirib, demişik niyə geri qalım ki, dərhal kredit götürüb fəaliyyətə başlamışıq. Qonşu maşın alıb, yenə qaçmışıq banklara ki, kredit götürək birini də mən alım, niyə ondan nəyim kəsirdir ki?.. Qonşu yaxşı, bahalı bir paltar geyinib, başlamışıq mağazaları axtarmağa ki, görəsən onu haradan alıb, mən də tapıb alım, görsün ki, mənim də varımdı, heç də ondan əskik deyiləm. Lakin bir məsələni həmişə unutmuşuq ki, axı qonşu ilə mənim gəlirim, əmək haqqım, qazancım eyni deyil. Mən nə üçün ayağımı yorğanıma görə uzatmamalıyam?..

## Nə üçün məhz ali təhsil?..

Qohum, qonşu, iş yoldaşı nə deyər, suallarına cavab axtara-axtara övladlarımızı yönəldirik hazırlıqlara. Ondan uzaq olmağımızla, hansı fənnə marağı, hansı qabiliyyətə malik olmasını öyrənmədən, kəşf etmədən sadəcə bir qrup üzrə hazırlıqlara göndəririk ki, bu gün, sabah məktəbi bitirəcəksən, ali təhsil almalısan.










Çox halda övladımızı yaradıcılıq məktəblərindən, kurs və məşğələlər idmandan uzaqlaşdırırıq ki, fikrini dərslərinə versin, vaxtı çatanda yetərli bal toplaya bilsin. Belə olanda isə övladlarımız əziyyət çəkir, qavramır, dərk etmir, sıxılır, lakin evdə yaranacaq söz-söhbətdən qorxub səsini çıxarmır. Biz isə uşağımızın potensialını görmək belə istəmirik. İstəmirik biləк ki, bu uşaq müəllim, mühəndis, psixoloq, həkim, jurnalist ola bilər, ya yox... Bu barədə əsla fikirləşib vaxtımızı sərf etmək istəmirik. Hansı ki, övladımız gözəl jurnalist ola bilər, biz onu həkim olmağa, əla müəllim ola bilər, biz onu mühəndis olmağa yönəldirik. Digər halda isə uşağımız gözəl dərzi, zərgər, dülgər, elektrik mühəndisi, xalçaçı, ailə təsərrüfatçısı, ayaqqabı ustası, bərbər və adlarını saymadığımız onlarla peşə sahibi ola bilər. Uşaqlarımızı ali təhsil almaqda səhv ixtisas seçməyə yönəltdiyimiz kimi, ümumiyyətlə, ali təhsil almağa potensialı olmayan övladlarımızı gözəl peşələrdən birini öyrənməyə də yönəltmirik, onları yalnız ali təhsilli görmək istəyirik.

Nəticə nə olur? Belə olur ki, baxmayaraq valideyn illərdir, hazırlıqlara pul tökür, uşaq bal toplaya bilmir. Valideyn isə düşür uşağın üstünə. Yuxarıda da qeyd etdiyim tənələrlə başlayır onu danlamağa, qonşu, qohum uşaqlarını misal çəkir, nümunə göstərir. "Sən niyə belə oldun", "bütün ümidlərimizi məhv etdin", "səndən heç nə çıxmaz, heyf səndən ötrü tökdüyümüz pullara" deyə-deyə uşağın əsəb-sinir sisteminə ağır zərbələr vurur. Bir də eşidirsən ki, filan abituriyent, filan gənc intihar etdi. Yaxud da cəmiyyət üçün faydasız bir fərdə çevrildi. Hansı ki, o, vaxtında yönəldilsəydi, ən yaxşı dərzi, bərbər, zərgər, istənilən bir sahədə sənətkar ola bilərdi. Onların qazancı isə heç də ali təhsillilərin qazancından az deyil. Əksinə, sənətinin sahibi olmağı bacaranlar indi çox təhsilli insandan yaxşı yaşayır.

Valideynin səhv yönəltdiyi uşaq yaxşı bir idmançı da ola bilər. Hansı ki, illərdir həmin uşağı, necə deyərlər, qapadıb evə ki, oxu. Axı bu uşaqda çempion olmaq potensialı var. Nə üçün qoymuruq uşaq bacardığı sənətin, peşənin ardınca getsin. Bu gün hökmən mühəndis etmək istədiyimiz uşaq gözəl rəssam ola bilərdi. Biz isə onu repetitorların yanına göndərmişik ki, ata-anası həkimdir, o da həkim olmalıdır. Lakin bu uşaq özünü həkimlikdə tapa bilmir, gücü çatmır lazımi bal toplamağa. O, yaxşı bir rəssam ola bilər. Lakin biz səhvlərimizlə onu nə həkim kimi görürük, nə də rəssam kimi.

## Kamil bir palançı olsa da insan...

Allah sənə rəhmət eləsin, dahi Nizami Gəncəvi. Hələ əsrlər öncə deyirdin ki, kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan. Budur, səsləndirdiyin dəyərli fikirlərin əsl məqamı gəlib yetişib. İndi valideynlər düşünürlər ki, dərzilik, bərbərlik, dülgərlik hara, mənim uşağım hara... Qoy gedib təhsil alıb sayılıb-seçilən insanlardan olsun. Özümüz oxumuşuq, ali təhsilliyik, övladımız da hökmən oxumalıdır. Və yaxud da ki, özümüz oxumamışıq, hökmən uşağımız oxusun ki, bir gün görsün. Vallah hər iki haldakı fikirlər çox dəyərlidir. Hər bir valideynin arzusudur ki, övladı yaxşı təhsil alsın, təhsilin bütün pillələrində iştirak etsin, cəmiyyət üçün layiqli vətəndaş olsun. Lakin gərək dünyaya gətirdiyin uşağın gücünü, potensialını da hesablaya biləsən axı. Əgər o, həkim, müəllim, mühəndis, iqtisadçı, mühasib olmaq gücündə deyilsə, bunu zorla necə etmək olar?

Həqiqətən bir sənəti, peşəni kamil bilmək insana həyatda ən böyük uğurları qazandırar. Məsələn, valideynlərin üstünə düşərək, sən hökmən yüksək bal toplayıb müəllim olmalısan təhdidləri ilə hazırlıqlara gedən, lakin nəticəsi az olan abituriyentin potensialı əvvəlcədən nəzərə alınaraq kamil bir peşə sahibi ola bilərdi. Biz səhv yanaşmamızla, seçimimizlə övladımızı hər iki tərəfdən çarəsiz qoyuruq. Birinci olaraq, o, öz yaşıdlarından geri qalır. İkinci olaraq bacara, uğur qazana biləcəyi təqdirdə kənarda qalır.

Beləliklə, bir sual çıxır meydana: hər kəsin təhsil alması vacibdirmi? Ailə təsərrüfatları tanıyıram, işlərini elə qurublar ki, il ərzində minlərlə manat qazanırlar. Bütün ailə seçdikləri bir təsərrüfat sahəsi ilə məşğul olur, ildən-ilə bu işi daha da mənimsəyir, nəticədə həyatlarını gözəl qura, büdcələrini artıra, süfrələrini bol nemətlərlə təmin edə bilirlər.

Elə dərzi tanıyıram ki, yaşadığı ərazidə müəllim, həkim, tibb bacısı, mühəndis, digər sahələrin sahibləri paltar tikdirmək üçün onun yanına gəlir. Həmin dərzi sənətinin o qədər gözəl sahibidir ki, yanına gələnlərin hamısından yaxşı qazanır, yaxşı da dolanır.

Bərbər tanıyıram ki, saçını formaya saldırmaq üçün həftələr öncədən növbəyə yazılmalısan. İşini o qədər gözəl mənimsəyib, insanların zövqünü o qədər gözəl oxşayır ki, insanlar həftə ilə gözləyirlər ki, boşluq yaransın, yalnız o bərbərin yanına getsinlər. Həmin bərbər məhz bərbər peşəsi ilə bütün şəraitini qura bilib. Evi, maşını, insanın gözəl, təminatlı yaşaması üçün nə lazımdırsa, onu özü üçün edib.

Onlarla belə peşə sahibindən söhbət açmaq, onları nümunə göstərmək olar ki, heç də ali təhsil alanlardan pis yaşamır, çox halda onlardan yaxşı yaşayırlar. Buradan belə bir qənaətə gəlmək olur ki, hansı sənətin, hansı peşənin sahibi olursan ol, sənətini, peşəni gözəl bil. Şair demişkən, yarımçıq papaqçılıqdansa, kamil bir palançı ol. Bu halda hər kəs səni harada olursan ol, axtarıb tapacaq. Gözəl peşə sahibi olmaq o deməkdir ki, sən insanlara hər zaman lazımsan, onlar səni ən uzaqlarda yaşasan belə, axtarıb tapacaq, ehtiyacı üçün sənə müraciət edəcəklər.

## 150 balla ali təhsilin faydası varmı?

Bu günlərdə sosial şəbəkələrdən birində belə bir məlumata rast gəldim: bu il II qrup üzrə 11141 nəfər 0-150 arası bal toplayıb. Vəziyyət o yerdədir ki, bu qrupda müsabiqə şərtini ödəyən hər kəs düzgün seçim etsə, tələbə adını qazanacaq?

Hələ tək II qrupdan misal gətirdik. O biri qruplarda da kifayət qədər bu cür bal toplayan abituriyentlər var. Yəni qrup balına görə ən aşağı nəticə. Bütün bunlar isə biz valideynlərin, eyni zamanda məktəb kollektivlərinin, ümumilikdə təhsilə cavabdeh olan şəxslərin işini düzgün qura bilməməsinin nəticəsidir. Maraqlıdır, görəsən 150 balla hansısa bir ixtisas üzrə təhsil alan tələbə sabah cəmiyyətdə özünə necə mövqe qazana biləcək? Harada işləyəcək, işlədiyi sahəyə töhfəsi nə olacaq?

Nə üçün bu qədər aşağı balla tələbə adına layiq görürük gəncləri? Vallah bu, onları aldatmaqdır. Nə üçün ali məktəblərə qəbul üçün ən aşağı bal bir sanballı rəqəm götürülmür? Ödənişli əsaslarla təhsil alıb, hansı quruma isə xeyir edən bu gənclər sabah Vətənimiz üçün xeyir verə biləcəkmi? Bizə isə lazım olan əsas budur ki, cəmiyyətimiz üçün savadlı, intellektli gənclər yetişsin.

150 balı zorla toplayıb təhsil dövründə də sürünə-sürümə kursdan-kursa keçən, birtəhər universiteti bitirən gənclərin sabahkı taleyi çox düşündürücüdür: onlar iş tapa biləcəkmi? Yaxşı bir yolla tapdılar, özlərini doğrulda biləcəklərmi?

Biz bilə-bilə, görə-görə cəmiyyətimizi hara aparırıq? Olmazmı ki, məktəblərdə valideyn-müəllim-şagird üçbucağını yarada bilmək sayəsində bu gülünc təhsilə son qoyulsun? Yəni onların hər üçünün iştirakı ilə məktəb illərində şagirdin tam potensialı üzə çıxarılsın, müxtəlif peşələrə yönəldilsin. Ya da ən yaxşısı bu ola bilər ki, qəbul üçün elə bir aşağı bal həddi tətbiq olunsun ki, valideynlər də, məzunlar da artıq hansısa bir peşə haqqında fikirləşsinlər. Valideynlər təhsil dəbindən əl götürüb övladlarının yaxşı gələcəyini düşünsünlər. Belə olarsa, cəmiyyət də qazanar, cəmiyyətimizin gələcəyi olan gənclər də. Həm ölkəmizdə yüksək balla təhsil alan gözəl mütəxəssislər olar, həm də yaxşı peşə, sənət sahibləri.

Bu gün müəllim, həkimlərimiz və digər qurumların əməkdaşları sertifikasiya imtahanlarından keçirilirlər. Hansı ki, onların əksəriyyəti vaxtilə 500-600, 600-700 arası bal intervalında universitetlərə qəbul olunub, hazırda çalışırlar. Əgər bu savada malik insanlar yenidən imtahan olunurlarsa, bu gün 150 balla təhsil alacaq gənclər sabah həmin sertifikasiya imtahanlarının öhdəsindən gələ biləcəklərmi? Bu sualın cavabını dinləmək də maraqlı olardı..

## Kim olursan ol, sənətinin sahibi ol...

Çox gözəl deyimdir ki, kim olursan ol, sənətinin sahibi ol. İnsan sənətinin sahibi olmayanda cəmiyyətdə gülünc hədəfinə çevrilir. Həyatda rastlaşdığımız hadisələr bunu hər dəfə təsdiq edib. Məsələn, elə müəllimlər bizə dərs deyiblər ki, sinifdə sakitlik yarada bilməyiblər. Verdiyimiz sualları cavablandıra bilməyiblər. Elə həkimlə qarşılaşmışıq ki, xəstəliyimizin yaranma səbəblərini aydınlaşdıra bilməyib. Səhv müalicə ilə bizi daha çarəsiz vəziyyətə salıb. Elə tibb bacısı görmüşük ki, vurduğu iynənin xəsarətini aylarla çəkmişik.

Elə televizor, soyuducu, kondisioner ustaları görmüşük ki, evlərimizdən ayrılıb öz evinə çatanadək təmir etdiyi əşya yenidən xarab olub. Elə avtomobil təmirçisi ilə rastlaşmışıq ki, əl işini başqa təmirçiyə göstərəndə indiyədək həyatda qalmağımıza təəddüdlə baxıb. Elə bərbərə rast gəlmişik ki, kəsdiyi saçı aylarla toplamışıq, qüsurunu heç kim görməsin deyə. Elə dərzi ilə qarşılaşmışıq ki, xərc çəkib tikdirdiyimiz paltarı bircə dəfə əynimizə almamışıq.

Elə zərgər görmüşük ki, ümumiyyətlə, zərgərlikdən, zərif işi necə görək lazım olduğundan əsla xəbəri yoxdur. Bunun kimi onlarla misal çəkib həm ali təhsilli, həm də müxtəlif peşə sahibi olub, lakin sənətini dərindən bilməməsi səbəbindən həmişə tənqidlərə məruz qalanlardan danışmaq olar.

Deməli, hər kəsin ali təhsil ardınca qaçması heç də bugünkü cəmiyyətimizə lazım deyil. 150 balla təhsil alıb sonra verilən sualların qarşısında məəttəl qalmaqdansa, tapşırılan işin öhdəsindən gəlməkdə çətinlik çəkməkdənsə, elə bir sənət, peşə seçib onunla məşğul olmaq lazımdır ki, necə deyərlər, sənətinin sahibi ola biləsən.

Ulu Yaradan insanların hər birini yaradarkən onlara öhdəsindən gələcəyi bacarıq da bəxş edib. Lakin bəzi müəllim, valideyn, aid şəxslərin səriştəsizliyi sayəsində o bacarıqlar üzə çıxa bilmir. İtib batır, əksər halda isə heç aşkarlanmır. Düşünürəm ki, kimdəsə olan bacarığı aşkar etmək heç də asan məsələ deyil. Buna illər və əmək lazımdır. Görünür adı çəkilən aid şəxslər buna görə ondan boyun qaçırırlar. Belə olan halda isə güc düşür şagirdin və təhsilin üzərinə. O şagirdin ki, bizim övladımızdır, cəmiyyətin sabahıdır. O təhsilin ki, övladımızın sabahıdır. Biz əksər hallarda bu sabahların açılmasına icazə vermirik. Hansı ki, o sabahlar bir-birindən günəşli, aydın, işıqlı açıla bilər...

***Mətanət MƏMMƏDOVA***

# “Qarabağın yox, Zəngəzurun status məsələsi gündəmə gələcək”

**“Azərbaycan, Rusiya və Ermənistan arasındakı növbəti üçtərəfli görüşü böyük səbirsizliklə gözləyirik”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.**




Onun sözlərinə görə, Bakı ilə Moskvanın yanaşmaları demək olar ki, üst-üstə düşür: “Yəni, bu yanaşmalar ondan ibarətdir ki, üçtərəfli sazişlərin müddəaları qeyd-şərtsiz yerinə yetirilsin. Belə ki, Azərbaycan üzərinə düşən bütün öhdəlikləri addım-addım yerinə yetirib. Biz prosesləri həm zamana uyğun tənzimləyirik, həm də genişmiqyaslı işlərin bütün yüklərini qaldıraraq həyata keçirməyə nail olduq. Ermənistan tərəfindən gözləntilərimiz var. Çünki ermənilər görüşlərdə verbal şəkildə , yəni danışıqlarda razılaşaraq ”hə”cavabı verir, lakin tətbiqi baxımdan prosesləri uzadır. Onların gözləntiləri geosiyasi cəryanlarla bağlıdır. İlk növbədə Ermənistan çalışır ki, prosesləri 2023-ə qədər uzatsın. Türkiyədə prezident seçkiləri olmağını və hakim partiya ”AK ” partiyanın məğlub olmasını gözləyirlər. Düşünürlər ki, Türkiyəyə ermənipərəst qüvvələr hakimiyyətə gələ bilər. Digər tərəfdən Azərbaycanı gözlənilməz vəziyyət ilə üz-üzə qoymağa çalışırlar. Yəni onlar digər qüvvələrdən dəstək gözləyirlər ki, onlar öz istəklərini diktə edə bilsinlər. Biz bilirik ki, Zəngəzur dəhlizinin açılmasının qarşısını almaq üçün nə qədər maneələr törətməyə və Azərbaycana şərtlər qoymağa çalışdılar. Lakin Azərbaycan Prezidenti cənab İlham Əliyev İranla memorandum imzaladı. İran bizə öz ərazisindən 5 kilometrlik məsafə verir ki, biz layihəni Ermənistanın iştirakı olmadan həyata keçirək. İndiki məqamda Rusiyanın Cənubi Qafqaza diqqəti zəifləyib. Çünki Ukrayna hadisələri ciddi şəkildə cərəyan edir və eyni zamanda gərginlik artıb, döyüşlərin miqyası genişlənib. Amma buna baxmayaraq, Rusiyada 3 tərəfli formata təhkim olunmuş şəxslər o cümlədən, baş nazirlərin müavinləridir ki, onlar üçtərəfli bəyanatların tətbiqi üçün nəzərdə tutulan öhdəlikləri yerinə yetirsinlər. Azərbaycan bütün proseslərin layihələndirilməsinə, reallaşmasına, koordinasiya işinin təmin olunmasına, kommunikasıyaların açılmasında iştirak edir. Bu üçlü görüşlərdə əvvəlkində olduğu kimi, Azərbaycan mövqeyini ortaya qoyacaq. Ermənilərə elə gəlməsin ki, onların hər hansı imtiyazları və imkanları var ki, Azərbaycana problem yaratsınlar. Ermənilərin elə imkanı heç vaxt yoxdur. Hətta onlar kənar qüvvələrdən belə nəsə gözləntiləri varsa, bunlar belə heç nəyi dəyişməyəcək. Bilirsiniz ki, bu yaxınlarda İsmayıllının Basqal qəsəbəsinə Prezident İlham Əliyevin səfəri olub. Prezident açıq-aşkar Ermənistana mesaj göndərdi ki, bizim əməliyyatlarımızın və gördüyümüz işlərin qarşısına heç kəs maneəçilik törədə bilməz. Çünki biz heç bir beynəlxalq hüquqları pozmuruq. Bu baxımdan Azərbaycan dövləti israrlıdır ki, bütün proseslər vaxtında yerinə yetirilsin. Artıq bölgədə sülh ab-havası hakim olmalıdır. Ermənistan sülh sazişində maraqlı olmalıdır. Nahaq yerə Azərbaycan prezidenti yada salmadı ki, əgər siz status məsələsini qaldırsanız, Zəngəzurun da status məsələsi Azərbaycanın iştirakı ilə gündəmə gələcək”.

***Qönçə Quliyeva***

# “Qarabağda yaşayan ermənilər Azərbaycanın vətəndaşlığını alsalar... ”

**“Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli ordumuz 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad edərək hərb yolu ilə qələbəmizi təmin edib, 10 avqustda imzalanmış üçtərəfli bəyanatla isə Ermənistana öhdəliklər qəbul etdirib”. Bu fikirləri millət vəkili Azər Badamov ”Səs” qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, müharibəni döyüş meydanında Ermənistanın kapitulyasiyası ilə sonlandıran Azərbaycan iki ölkə arasında həllini gözləyən digər məsələlərin növbəti mərhələsini hərbi-siyasi yolla təmin edib: ”Belə ki, güllə atılmadan Kəlbəcər, Laçın və Ağdam rayonları da Azərbaycana qaytarılıb, bəzi məsələlərin isə həll olunması üçün müddətlər müəyyənləşdirilib. Belə məsələlərdən biri də Laçın dəhlizini Laçın şəhərin ərazisindən çıxartmaq və bu yol boyu yerləşmiş yaşayış məntəqələri Azərbaycanın nəzarətinə qaytarması ilə bağlıdır. Üçtərəfli Bəyanatın 6-cı bəndində nəzərdə tutulmuş Laçın dəhlizinə alternativ yolun Azərbaycan ərazisindən keçən hissəsi qısa zaman kəsiyində inşa edildi və Rusiya sülhməramlıların yerdəyişməsi üçün hazır vəziyyətə gətirildi. Alternativ yol infrastrukturunun hazır olmasını bəyan edən Azərbaycan separatçıların təxribatına qarşı qısa müddətli ”Qisas” əməliyyatı keçirərək qarşı tərəfə Laçın, Zabux və Sus yaşayış məntəqələrin boşaldılmasını tələb edib. Qarabağ erməniləri yaşayış məntəqələrin boşaldılması üçün Azərbaycandan 25 avqusta qədər əlavə vaxt istəyi ilə xahiş edib. Cənab Prezidentin qeyd etdiyi kimi, yaşayış məntəqələrimizin 25 avqust və ya 1 sentyabrda, yəni 3-5 gün tez və ya gec bizə təhvil verilməsi bizə o qədər əhəmiyyətli deyil. Əsası odur ki, müəyyən olunmuş müddətdə yaşayış məntəqələrimiz boşaldılmalıdır. Artıq ermənilər Laçın şəhəri, Zabux və Sus kəndlərini boşaldıb. Həmin yaşayış məntəqələrindən demək olar ki, ermənilər köçürülüb. Yaxın zamanda sülhməramlıların yeni çəkilmiş yola köçdüyünü, Laçın dəhlizinin Azərbaycanın nəzarətinə keçdiyini və oraların sakinlərinin öz doğma yurdlarına qayıtdığının şahidi olacağıq. Yəni, məsələlərin mərhələli şəkildə öz həllinin tapılması dövlətimizin qüdrətinin və ölkə başçımızın dediyi sözün gücünün real həyatda təzahürüdür. Dövlət Başçımızın ifadə etdiyi sözlər real nəticəsini verir. Qarabağ ərazisində yaşayan ermənilər bir daha gördülər ki, siyasətimiz humanizm üzərində qurulub və onların təhlükəsiz yaşamaları üçün Azərbaycandan başqa yaxşı bir yer yoxdur. Qarabağda yaşayan ermənilər bu reallığı tez dərk edib Azərbaycanın vətəndaşlığını alsalar, bütün problemlər qısa zamanda öz həllini tapar və Azərbaycanın digər xalqları kimi qanunlarımıza tabe olaraq sərbəst yaşaya biləcəklər”.



***Gülyana***



Vəli Vəliyev

# Duqina sıradan çıxdı, qaldı Şevçenko və Korotçenko

Mənim bir ehtimalım var. Daha doğrusu, ehtimaldan da o tərəfə bir həqiqətdir. Rusiyalı ideoloq Aleksandr Duqinin qızı, jurnalist Daria Duqinanın öz avtomobilində partladılaraq öldürülməsi ermənilərin işidir, erməni terrorçularının əməlidir, bu terrorda erməni izi var. Bu barədə SəsTV-də canlı yayımlanan ”Gündəm” verilişində də demişəm. Teraktda Ukrayna izi, qisas izi və digər izlərin hamısı ehtimallardır. Hətta Rusiya mətbuatı partlayışın qeyri-leqal ”Rusiya Milli Ordusu” adlı partizan hərəkatının öz üzərinə götürdüyü haqda məlumatlar da nədənsə şübhəli görünür. Bu qrupun bəyanatını yayan aparıcı Ponomaryovdan savayı kimsə ortada görünmür. Belə bir qrupun varlığından, yoxluğundan da kimsənin xəbəri yoxdur. Ona görə də Ermənistan və erməni terror təşkilatlarının bu qanlı olayı törətdiyini əsas versiya kimi götürmək olar.

Aleksandr Duqinin 44 günlük müharibədən əvvəl Qarabağa, Cocuq Mərcanlıya səfəri və Lələ Təpədə verdiyi açıqlama, o cümlədən müharibədən sonrakı açıqlamaları, Qarabağın Azərbaycanın torpağı olduğunu təkrarlaması onun və ailəsinin öldürülməsi üçün ermənilərin əlində əsas ola bilərdi və oldu. Ermənistan mətbuatının yazdıqlarına diqqət edək:

Bütün terroru rədd etməyimizə baxmayaraq, normal ermənilərin heç biri Duqinin öldürülmüş qızına rəğbət bəsləmirdi və bu heç vaxt ola da bilməz. Ölülər haqqında boş yerə ya yalnız yaxşı şeylər deyirlər, ya da heç nə demirlər, susurlar. Daria Duqinanın Rusiya xüsusi xidmət orqanları tərəfindən məhv edilməsi bu postulatı tamamilə təkzib edir. Çünki onun və atası haqqında yaxşı heç nə demək olmaz. İndi isə Ukraynaya rəsmi dəstək verən Bakıda açıq-aşkar qanlı ”rus dünyası”nın istifadə edilmiş tərəfdarı üçün ağlayırlar.

Belə ki, yazırlar - ”Daria Dugina Moskvada Qarabağ nizamlanması məsələsində Azərbaycan həqiqətlərini geniş şəkildə təbliğ edirdi, Azərbaycanın böyük dostu idi”. Əlavə olaraq, ”Daria 2020-ci ildə Azərbaycanın antiterror xüsusi əməliyyatının informasiya dəstəyində böyük rol oynayıb!”. Rusiyanın Qarabağa qarşı müharibəni hər cür dəstəklədiyinə daha nə sübut lazımdır?!

Üstəlik, Duqinin özü açıq şəkildə hər şeyi öz adı ilə çağırırdı. O, Azərbaycan mətbuatına verdiyi müsahibələrində qeyd edib ki, ”Ermənistan Qərbə doğru hərəkət etmək istəyəndə Qarabağ üzərində nəzarəti itirdi, çünki Rusiya Azərbaycanın ərazi bütövlüyünün bərpasına xeyir-dua, müəyyən mənada dəstək verdi”.

Duqin cəllad kimi özünə güvənən və səmimi idi. ”Biz Bakı ilə dostuq, Azərbaycanın ərazi bütövlüyünün bərpasına kömək etmişik və dəstəkləmişik, bu illər ərzində çox şey dəyişib. 90-cı illərdə Rusiyanı Yeltsin klanı idarə edirdi, bu, işğal hökuməti idi. Putin isə tədricən özündə gücü hiss edəndən sonra Rusiyanın maraqlarına uyğun siyasət yürütməyə, dostlarını dəstəkləməyə, rəqiblərini cəzalandırmağa başladı. Və əslində dostların dəstəyi Azərbaycanın ərazi bütövlüyünün bərpasına dəstək ifadə edildi. Paşinyan qarşısında tərəddüd edənlərin cəzası eyni idi”.

Erməni mətbuatı bir xatırlama da edib: Beynəlxalq Avrasiya Hərəkatının lideri Duqin 44 günlük müharibə başlamazdan əvvəl ”Moskva-Bakı” dərgisinə müsahibəsində vurğulayıb ki, ”sülh yolu ilə nizamlanmaya başlamaq üçün Ermənistan 5 rayonu, daha sonra isə digər 2 rayonu qaytarmalıdır”. Əslində bu, Duqinin ölkəmizin rəhbərliyini şantajı idi. Duqin: ”Bütün münaqişə zamanı bəlli oldu ki, ermənilərin istədiyi kimi Dağlıq Qarabağ ətrafındakı 7 rayonun Qarabağın statusu ilə dəyişdirilməsinə dünyada heç kim dəstək verməyəcək. 7 rayon sövdələşmə obyekti ola bilməz və heç bir halda Dağlıq Qarabağı müstəqil Ermənistan dövləti kimi tanımaq mümkün deyil. Azərbaycanlılar oradan qovulub, etnik təmizləmə zamanı qətlə yetirilib. Bu ssenari gündəmdən kənarda qalıb”.

Gəlin bir neçə il əvvəl baş verənləri geriyə çəkək. 2018-ci ildə Bakıda ”Azərbaycan Rusiyanın Qafqazda yeganə müttəfiqidir” adlı Duqinin iştirak etdiyi konfrans keçirilib. Həmin tədbirdə təkcə o deyil, eyni zamanda jurnalist və siyasətçi Maksim Şevçenko, ”Milli Müdafiə” jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenko, politoloq Yevgeni Bahrevski, Geopolitica.ru saytının aparıcı analitiki Aleksandr Bovdunov, Rusiya Dövlət Dumasının deputatı, Vahid Rusiya partiyası Aleksey Ezubov, Dövlət Dumasının komitə sədrinin müavini Dmitri Savelyev, Rusiya Dövlət Duması sədrinin köməkçisi Vladislav Kalxidov iştirak edirdilər.

Erməni mətbuatı bu şəxsləri Rusiya cəmiyyətində hər zaman yüksək səviyyədə ermənifobiyaya dəstək verən və saxlamaqda davam edən, həm də rəsmi Bakının bütün cinayətlərinə bəhanələr uyduranlar adlandırıb. Duqin və Şevçenkonun 2016-cı ilin aprelində dördgünlük müharibə zamanı Azərbaycan ordusunun ələ keçirdiyi yüksəkliyə o zaman qalxdıqlarını ermənilər hələ də xatırlayır.

”Ümumiyyətlə, Duqinin özü təkcə Rusiya deyil, həm də Azərbaycan təbliğatının elementi idi. O, sağ qaldı və eyni biabırçı rolu oynayan qızı öldü. Və heç birimizdə buna rəğbət ifadə edən söz yoxdur. Onlar sadəcə ola bilməzlər. Çünki ədalətin zəfəri var idi. Kimin əli ilə yaradılıb, bu ikinci sualdır. Ola bilsin ki, bu terroru amerikalılar və ingilislərlə sıx əməkdaşlıq edən Ukrayna xüsusi xidmət orqanları törədib. Bəli, rəsmi Kiyev baş verənlərdə hər hansı əli olduğunu inkar edir, lakin ondan başqa heç nə gözləmək olmaz. O, həmçinin Krımdakı partlayışlarda iştirakını da inkar edir! Hər halda, sifarişçinin və Daria Duqinanın qətlini həyata keçirənin adı önəmli deyil. Önəmli olan odur ki, o artıq yoxdur, atası isə hələ də sağdır. Şevçenko və Korotçenkonun həyatları barədə yenidən düşünməlidirlər”, deyə erməni mətbuatı hədəsindən də qalmır.

Bəli, ola bilsin ki, sabah, yaxub birisi gün Şevçenko və Korotçenko, o cümlədən Duqinin başına belə işlər gəlsin. Ermənilərin terrorla iş görməli, bu dildə danışmaları artıq sir deyil. Və mətbuatda da çəkinmədən rusiyalı siyasilərə, ermənipərəst olmayanlara qarşı düşmən mövqedə durmaları, istədikləri şəxsə terror mesajı göndərmələri bunu deməyə əsas verir ki, bu şıltaq millət hələ də öz yerini bilmir, ağalarına təpik atır. Bu da işə yaramayanda terror əl atır. Hər halda Rusiya xüsusi xidmət orqanları bu fikirlər üzərində dayansalar Duqinanın ölümünü daha tez açarlar, qatil(lər)in kim(lər) olduğunu asanlıqla ifşa edərlər.

SİYASİ RAKURS+AKTUAL

# Laçın şəhəri, Zabux kəndi: **növbədə haradır?**

*Vaxt Azərbaycan xalqının və dövlətinin səmərəsinə işləyir!*





**“Bu gün Zabux kəndinin bütün sakinləri evlərini tərk ediblər”. SİA xəbər verir ki, bu haqda separatçıların ”demokratik birlik” adlı ”partiyasının” qondarma sədri Suren Petrosyan özünün Facebook səhifəsində yazıb.**

Petrosyan özünün də Zabuxu tərk etdiyini bildirərək yazıb ki, o və ətrafı ”qarşılarında dayanan məsələləri həll etmək gücündə” deyillər. Görünən budur ki, o, bu qeydini edərkən hansısa diversiya və ya təxribat planlarını icra edə bilmədiklərinə eyham vurub. Onu da xatırladaq ki, üçtərəfli bəyanata əsasən, avqustun sonlarına qədər Laçın şəhərində, Zabuxda və Susda qanunsuz məskunlaşan bütün ermənilər bu əraziləri tərk etməlidirlər. Belə ki, Azərbaycan tərəfi Laçından yan keçməklə Qarabağla Ermənistanı birləşdirəcək avtomobil yolunu qısa müddətdə inşa edib.

### Livan terrorçusu bir müddət əvvəl səsləndirdiyi iddiasını necə həzmi-rabeəsindən keçirib?

Yeri gəlmişkən, avqust eskalasiyasına - daha dəqiq desək, rəsmi Bakının ultimatumuna qədər özünü Zabuxun ”kəndxudası” elan etmiş Livan ermənisi, terrorçu-quldur Andranik Çavuşyan vaxtilə başından böyük iddia ilə çıxış edirdi ki, ”əgər azərbaycanlılar Zabuxa vertikal şəkildə daxil olsalar, oranı horizontal şəkildə tərk edəcəklər”. Ancaq fakt budur ki, hələ vaxta bir neçə gün qalmasına rəğmən, Azərbaycanın yanğınsöndürənləri, FHN dəstəsi artıq həmin kəndlərdədirlər və ermənilər tərəfindən törədilməsi mümkün görünən yanğınların qarşısını almağa hər an hazırdırlar. Amma Çavuşyan özü artıq dabanına tüpürüb qaçıb, hətta sürünə-sürünə separatçıların qaldıqları Xankəndinə tərəf sivişib. Bu isə həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, Livan terrorçusu bir müddət əvvəl səsləndirdiyi iddiasını necə deyərlər, həzmi-rabeəsindən keçirib...

### Mağaza sahibəsi Aida Balıkyan isə etiraf edir ki, o Laçına şəhərin işğalı dövründə yerləşib

Rusiyaya bağlı ”Kavkazskiy uzel” isə yazır ki, Laçının sözdə ”erməni administrasiyası” əhaliyə kəndləri avqustun 20-ə qədər tərk etmək tapşırığını verib. Hansı ailələr ki, öz məişət əşyalarını toplaya bilməyiblər, onlara uzağı avqustun 25-nə qədər zaman verilib. Üstəlik, bütün yaşayış məntəqələrinin rabitə, elektrik, internet və s. vasitələri kəsilib.

Adıçəkilən nəşrin qeydinə görə, 44 günlük müharibədən sonra Sus kəndində 4-5 ailə qalırdı, Laçın şəhəri və Zabux kəndindən isə hazırkı vaxta qədər 90 % erməni çıxıb. Laçından olan 3, Zabuxdan olan isə 5 ailə müvəqqəti olaraq Azərbaycan ərazilərində yerləşmiş Rusiya sülhməramlıları kon-



tingentinin nəzarəti altındakı yerlərdə qalmaq qərarını veriblər. Onlara Xankəndiyə köçmək vədi verilib.

Özünü "Laçın administrasiyasının rəhbəri" adlandıran Muşeq Alaverdyan da bəyan edib ki, şəhər avqust ayının 25-də təhvil verilir. Onun ”həmkarı” Andranik Çavuşyan isə bildirib ki, Xankəndiyə yerləşəcək və artıq öz ailəsini də oraya göndərib. ”Hazırda Zabuxda 30 nəfər adam qalıb, onların hər biri öz yüklərini daşımaqla məşğuldurlar, sülhməramlılar da deyiblər ki, avqustun 25-nə qədər vaxtımız var”, deyə livanlı quldur bildirib.

### Maraqlıdır ki, yuxarıda qeyd etdiyimiz Suren Petrosyan şəhərin və kəndlərin tamamilə boşaldığını deyir, amma digərləri hələ də qanunsuz ermənilərin qaldıqlarını bildirirlər...

”Kavkazskiy uzel”in jurnalistinə danışan mağaza sahibəsi Aida Balıkyan isə etiraf edir ki, o Laçına şəhərin işğalı dövründə yerləşib. ”Ermənistan hakimiyyəti bizə dedi ki, bizi Laçına eksperiment qismində yerləşdirirlər. Biz hökumətə inandıq və bu yerlərə gəldik. İndi isə görünür ki, onların vədləri sadəcə yalanlar idi”, deyə erməni mağaza sahibi bildirib.

### İtaliyanın tag43.it portalı yazır ki, ermənilər rus sülhməramlılarının üzərlərinə düşən vəzifələrinin öhdəsindən gələ bilmədiklərindən narazıdırlar

Bu arada, İtaliyanın tag43.it portalı yazır ki, Qarabağda Rusiya sülhməramlılarına qarşı narazılıqlar artmağa başlayıb və bu narazılıqlar xüsusilə sonuncu avqust eskalasiyasından sonra daha da çoxalıb. ”Harada ruslar varsa, orada sülh var!” yazılı reklam lövhələri Qarabağın əsas yollarında vurulub. İndi isə həmin lövhələr uğursuz zarafat kimi görünür”, deyə italyan portalı yazır və xatırladır ki, sözügedən lövhələr Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlamasından əvvəl yerləşdirilib. ”İndi isə ermənilər rus sülhməramlılarının üzərlərinə düşən vəzifələrinin öhdəsindən gələ bilmədiklərindən narazıdırlar”, deyə portal qeyd edir. ”Ermənilər buralara 44 günlük müharibədən sonra geri döndülər. Belə ki, ruslar onların təhlükəsizliklərinə zəmanət verirdi”, deyə tag43.it portalı Xankəndi sakinlərinin birinin dilindən yazır. ”Əgər onlar buradadırsa, onda üzərlərinə düşən öhdəliklərini yerinə yetirməlidirlər. Lakin hər şey belə getməzsə onda biz burada beynəlxalq sülhməramlıların yerləşdirilməsini tələb edəcəyik”, deyə Xankəndi ermənisi söhbətində bildirib.

Əslində isə bu gün bizləri Xankəndi, yaxud Laçında qeyri-qanuni yaşayan ermənilərin hansı fikirlər bildirmələri əsla maraqlandırmır. Fakt budur ki, Azərbaycan qarşısına qoyduğu məqsədlərini realizə edir və söz yox ki, bizi qarşıda Xocalı, Ağdərə, Əsgəran, Xocavəndin bir hissəsi, Kərkicahan kimi ərazilər də gözləyir, əlbəttə ki, Xankəndinin mərkəzində Azərbaycan bayrağının dalğalanması faktının tezliklə icra olunması reallığı ilə. Vaxt söz yox ki, Azərbaycan dövlətinin və xalqının səmərəsinə işləyir!

***Rövşən RƏSULOV***

---



Mətanət MƏMMƏDOVA

## Yandıra-yandıra, yana-yana gedənlər

**Məlumdur ki, söhbət yenə də qonşuluqdan kənar qonşumuzdan-ermənilərdən gedir. Torpaqlarımızı tərk edərkən evləri, həyətləri, ağacları, ətrafda var olanların hər birini yandıran, viranəyə çevirən ermənilərdən. Onları başa düşmək bir o qədər də çətin deyil.**

Birincisi, bu məxluqlara Allahın verdiyi xislət yalnız bundan ibarətdir. Onların alnına vəhşi, vandal, qəddar, nankor, qaniçən, insanlıqdan uzaq hər şeyi özündə cəm edən xüsusiyyətlər yazılıb. Və onlar da bütün bunları sevə-sevə yaşamaqdadırlar. Necə deyərlər, adlarını ana südləri kimi haqq edirlər.

İkincisi, maraqlı digər bir tərəf, onlar yanmasalar, yandırmazlar. Deməli, yanan tərəfləri yandırdıqlarından daha böyükdür ki, belə yanğınlara səbəb olur. 44 günlük müharibədə uduzmaq, 30 ilin yalançı mifinin biabırcasına meydana çıxması və alt-üst olması, havadarlarının ta arxalarında dayanmaması, dünyada rüsvay olmaları, ən əsası isə xislətlərindən irəli gələn vəhşilik onları bu həddə gətirib çıxarır. Onlar yanırlar və öz yanğılarını dilsiz-ağızsız evlərdən, həyətlərdən, ağaclardan, təbiətdən çıxırlar. Çünki bütün bunlar onların əsl təbiətindən irəli gəlir

Yandırın, nə qazanacaqsınız? Gündən-günə dünyada vəhşiliyinizin üstünə vəhşilik gətirməkdən, əsl mahiyyətinizi ortaya çıxarmaqdan başqa heç nə.

Yandırın, lakin çıxın, tərk edin. Biz gələcəyik, unutmayın. Yandırdığınız yerlərdə cənnət yaradacağıq.

Dərk edin ki, əsas məsələ torpaq sahibi olmaqdır. Əgər torpağın varsa, onun sahibi sənsənsə, əsrlər sonra da viranələr, xarabalıqlar üzərində cənnət yarada bilərsən. O torpaqlar da sizlərdən fərqli olaraq bizə aiddir, bizimdir. Biz isə sizin yandırdığınız, məqsədinizin xarabalıq yaratmaq olduğu torpaqları necə cənnətə çevirəcəyik, görəcəksiniz. Bunu axı özünüz də etiraf edirsiniz. Deyərsiniz ki, bizim 30 ilə edə bilmədiklərimizi Azərbaycan iki ilə yaxın dövrdə edib.

Hələ gözləyin, gözləyin, görəcəksiniz ki, o torpaqlar hansı inkişafa nail olacaqdır. Onda daha çox yanacaqsınız. Bu dəfə artıq yandırmağa bir yer tapa bilməyib özünüzü yandıracaqsınız.

ARAŞDIRMA

# Suşi yeyərkən nələrə diqqət etməliyik

”Suşi yeməyi haranındır?” sualının cavabı təbii ki, Yaponiyadır. Hətta suşini yapon mətbəxinin ən klassik və populyar yeməklərindən biri kimi nümunə göstərə bilərik.

Bu gün suşi kimi tanınan yemək növü Edoda, indiki Tokioda Hanaya Yohei tərəfindən icad edilib.

Suşinin eramızdan əvvəl 4-cü əsrdə Asiyanın cənub-şərqində Mekonq çayı ətrafında və Çin ərazisində meydana gəldiyi güman edilir. 8-ci əsrdə Yaponiyaya gətirilən suşi ilk dəfə balıqların duzlanması, düyü ilə bükülməsi və daha uzun müddət saxlanılması üçün quyularda saxlanması zamanı ortaya çıxıb.

”Asiya” dedikdə ağla gələn ilk yemək suşidir. Onu sevənlər qədər sevməyənlər də



az deyil. Çiy balıq yeməyə qərəzli münasibət bəsləyənlər tərəfindən bu yemək sevilmir. Bu səbəbdən, ilk təcrübədə ”Yox, bu yemək qəti mənlik deyil!” sözlərinə tez-tez rast gəlinir. Amma zövqünüzə uyğun suşi növlərini tapsanız, ”nə qədər yesəm də, doymuram!” deyilən tərəfə keçə bilirsiz.

Suşi növləri:
Maki
Uramaki
Nigiri
Chirashi
Sashimi
Kaliforniya
Britaniya Kolumbiyası
Filadelfiya

Hələ də suşi sevmirsinizsə, ona bir şans verməlisiniz. Zövqünüzə uyğun olacağını düşündüyünüz müxtəlif suşi növləri ilə dünya mətbəxinin ən ləzzətli dadlarından birini əldə edin.

## İlk dəfə suşi yeyən şəxsin seçimi nə olmalıdır?

Kappa rolu (düyü və xiyar) və kaliforniya rolu (düyü və avokado) tövsiyə olunur. Ola bilər ki, siz dərhal buna alışmayasınız.

Makinin bir növü olan Uramaki yeni başlayanlar üçün ən uyğun suşi növlərindən biridir.

## Suşi tamamilə çiydir?

Suşidə bütün balıq və dəniz məhsulları üçün çiy demək düzgün olmazdı. Suşinin bir çox çeşidi var və hər birində fərqli kəsmə və bişirmə üsullarından istifadə edir. Yalnız çiy şəkildə təqdim olunan çeşidlərə sashimi deyilir.

## Suşi hansı içki ilə istehlak edilməlidir?

Suşi ilə ən çox seçilənlər ”Sake”-dir. Əsas tərkib hissəsi kimi jasmin çayı, yaşıl çay, ağ şərab və düyü olan ənənəvi yapon içkisidir.

Suşi nə qədər müddətdə istehlak edilməlidir?

Yeniliyinə tam əminsinizsə, bir gecə saxlaya bilərsiz.

## Suşi çubuqları necə adlanır?

Bu gün Çin və ona yaxın ölkələrdə Koreya, Yaponiya, Monqolustan, Tayvan, Vyetnam, Tayland, Sinqapur və başqalarında bu çubuqlardan istifadə olunur. Bu çubuqlara ”varibaşi” deyilir. Ancaq bəziləri buna ”haşi” də deyirlər.






## Suşi çubuqları əldə necə tutulur?

Üst çubuğu baş barmağınızın və şəhadət barmağınızın ucları arasında saxlayın. Orta barmağınızı çubuqun altına gətirin və çubuğun baş barmağınız, şəhadət və orta barmağınız arasında oturmasına icazə verin. Eynən qələm tutmaq kimi.

## Bakıda suşi setlərinin qiymətləri hansı aralıqlardadır?

*”Sushihouseaz” adlı məkanda:*

MIX set 27.50 AZN-dır. Tərkibinə 36 ədəd suşi daxildir.

Prestij set 35 AZN-dır. Tərkibinə 42 roll və 8 ədəd nigiri daxildir.

”Sushikalmar” adlı məkanda:

Tokyo set 22.90 AZN-dır. Setin tərkibinə 44 rol daxildir.

Set Yamato 39.99 AZN-dır. Setə 84 rol və 2 litrlik içki daxildir.

*”Sushi.servis” adlı məkanda:*

İmperator set 77 AZN-dır. Setə 140 rol daxildir.

Bəs, suşinin zərər və faydaları nələrdir? Suşi alarkən hansı məqamlara diqqət etməliyik? SİA mövzu ilə bağlı araşdırma aparaq mütəxəssis və qida üzrə ekspertlərin fikirlərini öyrənib.

**AİB sədri Eyyub Hüseynov:** ”Suşi balıq tərkibli olduğu üçün təhlükəli qida siyahısına daxildir. Mən suşi çox yemirəm. Lakin



başqa ölkələrdə görmüşəm ki, xüsusi lent üzərində fırlanır. Masa arxasında əyləşən insanlar da buradan götürərək istehlak edir. Mən həmişə suşinin bu cür təqdimatını məşhur rus ruletinə bənzədirəm. Yəni, zəhərli suşi kimə düşərsə, özü bilər.

Mən suşini Azərbaycan şəraitində arzuolunmaz qida hesab edirəm. Bunun ən arzuolunmaz cəhəti isə onun onlayn sifarişi və evə çatdırılması məsələsidir. Onun hansı temperaturda çatdırılması və s. sual altındadır.

Bu Azərbaycan üçün xas olmayan bir qidadır və trend kimi qəbul olunur. ”Hansı şəraitdə hazırlanır?”, ”Balıq haradan gəlir?” və s. qaranlıq məsələlərdir.

Vaxtilə şəhərin ən məşhur restoranlarında reydlər keçirmişik. Görmüşük ki, ən bahalı restoranın mətbəxi belə bərbaddır. İstehlakçılar elə düşünür ki, orada onlara təzə yeməklər hazırlayırlar. Amma orada yeməklərin donu açılıb qızdırılır.

Biz Yaponiyadan gəlmiş yeməyin tərəfdarı deyilik. Buna nəzarət edən heç bir qurum da yoxdur”.

**Qida üzrə baş mütəxəssis Ağa Salamov:** ”Suşi min illərə söykənən bir yapon mədəniyyətidir və yaponların yemək tərzi ilə bizim yemək tərzimiz başqadır. Yəni, burada mentalitet, milli mədəniyyət var. Bu təam bizim ağız dadımıza uyğun olmaya bilər. Amma bu, o demək deyil ki, suşi bizə ziyandır.



Müəyyən suşilər ki, var çiy yeyilir. Yəni, onların ziyanı ola bilər. O da müəyyən bir parazitlərin mədə-bağırsaq sistemində zəhərlənmələrin əmələ gəlməsinə yol aça bilər. Çiy istehlak olunan suşilər var ki, onlara Saşimilər deyirlər. Saşimilər bizdə təbii ki, yoxdur. Mən rast gəlməmişəm.

Hot rollar var ki, bunlar isti rollar, yəni bişmiş suşi sayılır. Bu insanların ağız dadına görə dəyişir. Onların heç bir ziyanı yoxdur.

Bir ara dedilər ki, dəniz məhsulları olduğuna görə suşini sanki çiy bir məhsul kimi qəbul edirlər. Çiy deyil, düyüsü də, əti də bişir. Sadəcə olaraq, hisə verilmiş balıqdan da olur. Onsuz da hisə verilmiş balıq mədəniyyətimiz var. Südlü aş var ki, orada quru balıqdan istifadə olunur. Bu da bizə təbii ki, zəhərlənmə verə bilməz. Balıqlar ən çox suşilərdə istifadə olunur. Mikrobioloji çirklənmə olarsa zəhərlənmə verə bilər.

Suşi mədəniyyətində vasabi və bir də soya sousu var. O xardaldan hardasa bir çay qaşığının ucunda soya sousuna qarışdırıb yemək olar (suşinin düyü olan hissəsini yox, çox adam düyü hissəsinə batırır, bu, yanlışdır. Yəni, o zaman suşinin dadı itir. Ətli hissəsini sousa batırıb yemək lazımdır. Bu da əgər orada çiy balıq varsa zəhərlənmənin qarşısını alır).

İndi bu xardal hotrolların da yanında verilir. Yəni, bişmiş krevetka suşisi var ki, krevetkanın və krevetkadan hazırlanmış suşinin də yanında verilir. Onu bir balaca xardalı soya sousa qatıb o ətli hissəsini sousa batırıb yeyib daha dadlı olacaq və heç bir ziyanı da olmayacaq. Suşinin ümumiyyətlə heç bir ziyanı yoxdur.

Bizim çiy mədəniyyətimiz də yoxdur. Çox vaxt özümüzü modern və yaxud qlamur göstərmək üçün saşimilərə müraciət edirik, yəni, çiy balıqlara. Bu da təbii ki, qida zəhərlənməsinə gətirib çıxara bilər”.

**Dietoloq Ceyhunə Yusifova:** ”İnsanlar ümumiyyətlə suşini sağlam qida kimi görürlər. Çünki onun tərkibində balıq var. Əslində, balıq yaxşı protein və omeqa 3 mənbəyidir. Suşinin əsas tərkib hissəsi ağ düyüdür və bu, demək olar ki, bütün lifləri, vitaminləri və mineralları çıxarılan rafinə olmuş məhsuldur. Bu cür rafinə karbohidratların böyük miqdarda qəbulu qan şəkərinin artması ilə əlaqələndirilir ki, bu da iltihabı artırır və diabet və ürək xəstəliklərinə səbəb olur.



Bundan əlavə, suşidəki düyü adətən, şəkərlə hazırlanır. Əlavə edilmiş şəkər və aşağı lif tərkibi suşinin karbohidratlarının həzm sistemində sürətlə udulması deməkdir.

Bu, qan şəkəri və insulin səviyyələrində sıçrayışlara səbəb ola bilər ki, bu da həddindən artıq yeməklə nəticələnir.

Suşi çox vaxt kilo vermə dostu olan bir qida kimi tanınır.

Ancaq bir çox suşi növləri yüksək yağlı souslar və qızdırılan tempura yağı ilə hazırlanır ki, bu da onun kaloriliyini ciddi şəkildə artırır.

Bundan əlavə, bir suşinin tərkibində çox az balıq və ya tərəvəz olur. Bu onu az proteinli, az lifli qida halına gətirir, aclıq və iştahı azaltmaqda daha az təsirli olur.

Suşi adətən çoxlu duz deməkdir. Suşi hazırlanarkən düyü adətən duzla bişirilir. Bundan əlavə, hisə verilmiş balıq və turşu tərəvəzlər də duz ehtiva edir.

Sonda soya sousu ilə verilir və bu sousda duzun miqdarı çox olur. Bu da bədəndə şişlik və ödem yaranmasına səbəb olur ki, nəticədə təzyiqimizi artıra bilər.

Çiy balıqla hazırlanmış suşi yemək sizi müxtəlif bakteriya və parazitlərə yoluxma riski ilə qarşı-qarşıya qoyur.

Dənizin çirklənməsi səbəbindən balıqlarda civə və ağır metallar da tapıla bilər. Tuna, qılınc balığı, skumbriya və köpəkbalığı kimi yırtıcı balıqlarda onun səviyyəsi yüksəkdir. Qızılbalıq, ilan balığı, alabalıq kimi növlərində isə aşağıdır.

## Suşinin faydalarını necə artırmaq olar?

Suşidən daha çox fayda əldə etmək üçün aşağıdakı sadə bələdçidən istifadə edə bilərsiniz:

## Qida qəbulunu artırın

Bunun üçün ağ düyüdən çox qəhvəyi düyü ilə hazırlanmış sarğılara üstünlük verin.

Konus formalı bükmələrə üstünlük verin. Onlar ənənəvi sarğılardan daha az düyüyə malikdirlər.

## Yeməyi lif və proteinlə zənginləşdirin

Krem pendir, souslar və tempura ilə hazırlanmış sarğılardan çəkinin. Bu zərərli maddələr olmadan daha xırtıldayan yemək istəyirsinizsə, əlavə tərəvəzlər istəyin.

Soya sousunu istifadə etməyin. Əgər duza qarşı həssassınızsa, soya sousundan qaçın və ya bir az batırın”.

***Ayşən Vəli***

ŞƏRH + AKTUAL

# Rusiyanın BMT-dəki daimi nümayəndəsi Putinlə Zelenski arasında birbaşa danışıqlar olmayacağını bəyan etdi



## İDDİA: "Kiyev və müttəfiqləri sonuncu ukraynalıya qədər döyüşəcəklər"

**Rusiya və Ukrayna arasında davam edən hərbi münaqişə tam sürəti ilə davam edir və artıq qanlı müharibə ilk yarım ilinə qədəm qoymaqdadır. Hazırkı dövrə qədər Türkiyənin və s. siyasi dairələrin vasitəçilikləri ilə bir neçə dəfə tərəflər arasında danışıqlar baş tutsa da, onlar nəticəsiz qalıb. Üstəlik, münaqişənin yalnız Ukrayna-Rusiya deyil, Qərblə Rusiya arasında getməsi də kimsəyə sirr deyil.**

Maraqlı məqamlardan biri də budur ki, bir müddət əvvəl Taxıl böhranının aradan qaldırılması müharibənin dayandırılması üçün münbit kart kimi düşünülürdü. Lakin təəssüf ki, bu şans da əldən verildi və Ukrayna cəbhəsində döyüşlər hazırda da davam etdirilməkdədir.

Bir sıra siyasi dairələr son vaxtlara qədər hesab edirdilər ki, iki ölkə arasında cərəyan edən savaşın dayandırılması üçün yeganə yol həmin ölkələrin liderlərinin ikitərəfli görüş keçirmələri ola bilərdi. Hətta zaman-zaman bunun mümkün olacağı an məsələsinə çevrilmişdi. Fəqət, bu gözləntilər də özünü doğrultmadı və maraqlıdır ki, həmin reallığı Rusiya rəsmilərindən biri də etiraf edir. Üstəlik, müharibənin hələ uzun müddət davam edəcəyi də proqnozlaşdırılır.





### Gennadi Qatilov: "Moskva münaqişənin uzanacağını gözləyir"

"Moskva müharibənin diplomatik danışıqlar vasitəsi ilə dayandırılması mümkünlüyünü görmür və münaqişənin uzanacağını gözləyir". SİA xəbər verir ki, bu haqda Financial Times nəşrinə Rusiyanın BMT-dəki daimi nümayəndəsi Gennadi Qatilov deyib.

Onun sözlərinə görə, BMT münaqişəyə son qoyulması yönündə göstərilən cəhdlərdə daha mühüm rol oynamalıdır. Qatilov bildirib ki, Ukraynanın üç limanının blokadadan çıxarılması ilə başa çatmış, eləcə də Rusiya ilə Ukraynanın BMT və Türkiyə ilə birgə imzaladıqları Taxıl anlaşması BMT-nin vasitəçilik cəhdlərində necə praktiki rol oynadığını sübut edən yeganə nümunədir.

Rusiyalı diplomat onu da hesab edir ki, Moskva və Kiyev aprel ayında münaqişənin dayandırılması üçün razılaşmaya çox yaxın idilər...

### Daha bir iddia: "Münaqişə nə qədər davam edəcəksə, bir o qədər də onun həllini tapmaq çətinləşəcək"

Gennadi Qatilov mövzu ilə bağlı proqnozlarını da irəli sürüb və bildirib ki, Putinlə Zelenski arasında birbaşa danışıqlar olmayacaq. Habelə, hazırda da diplomatik kontakt mümkünlüyünü görmür. "Münaqişə nə qədər davam edəcəksə bir o qədər də onun həllini tapmaq çətinləşəcək", deyə rusiyalı diplomat Financial Times nəşrinə müsahibəsində vurğulayıb.

"Sülh danışıqlarının bərpasının qeyri-mümkünlüyü və Qərbin Ukraynaya hərbi yardımları səbəbindən münaqişənin nə qədər davam edəcəyini də demək çətindir. Ona görə də onlar (Kiyev və müttəfiqləri) sonuncu ukraynalıya qədər döyüşəcəklər", deyə Gennadi Qatilov proqnozunu irəli sürüb.



# Ermənilərin müharibə təlaşı başlayıb: irəli sürülən tələblər artacaq!

## *Tiqran Abramyan: "Azərbaycan davamlı olaraq xatırladır ki, müharibə başa çatmayıb"*



Son vaxtlar istər Rusiya sülhməramlı kontingentinin müvəqqəti nəzarəti altında olan Qarabağ ərazilərində, istərsə də Ermənistanın Azərbaycanla hələ də delimitasiya və demarkasiya olunmamış və qeyri-müəyyən qalmış sərhəd ərazilərində baş verən erməni təxribatları səngimir. Maraqlıdır ki, təxribatlara rəvac verən erməni tərəfi olsa da, onlar dərhal ittihamlarını Azərbaycanın üzərinə yağdırırlar. Lakin unudurlar ki, Azərbaycanın da bu oyunbazlıqlara uzun-uzadı dözmək, səbr, təmkin nümayiş etdirmək fikri, marağı yoxdur.

Bu arada Ermənistanın müxalifətçi deputatı, "Şərəf duyuram" parlament fraksiyasının üzvü Tiqran Abramyan özünün feysbuk sosial şəbəkəsində bir neçə məqamlara toxunaraq əsas eyhamı Azərbaycana ittiham yağdırmaq üzərinə yönəldib və iddia edib ki, artıq Azərbaycan növbəti müharibəyə başlamaq hazırlığını görür. Ancaq maraqlıdır ki, o, erməni tərəfinin də fəaliyyəti barədə bəzi məqamları açıqlayıb.

### "Azərbaycan qarşısına qoyduğu əsas məqsədini həll edib"

SİA xəbər verir ki, news.am Abramyanın fikirlərini dərc edib. Onun sözlərinə görə, müharibədən sonrakı aralıqda tərəflər yeni sərhəd əraziləri formalaşdırırlar, bu isə yerlərdə daha üstün mövqelərə sahib olmaq üçündür. "Azərbaycan müharibədən sonrakı siyasi boşluqdan və Ermənistan respublikasının rəhbərliyinin susqunluğundan istifadə edərək böyük hesabla öz əsas məqsədini həll etdi, mühüm istiqamətlərdə taktiki və strateji yerlərə sahibləndi. Elə yerlər də var ki, hələ də mövqe mübarizəsi aparılır və bu da situasiyalı dəyişikliklərlə müşahidə olunur", deyə qeyd edən erməni deputatı sözlərinə əlavə olaraq bildirib ki, Azərbaycan özünün mövqe üstünlüklərindən istifadə etməklə hər dəfə Ermənistan respublikası hakimiyyətinə xatırladır ki, əgər daha əvvəl əldə edilmiş yazılı və şifahi razılaşmaları yerinə yetirməzsə, müxtəlif miqyaslarda güc tətbiqinin istifadəsi yenidən birinci plana çıxacaq.

### "Azərbaycan bizim silahlı qüvvələrin daxili dislokasiyalarından tutmuş ön xəttdəki infrastruktur dəyişikliyindəki istənilən hərəkətlərini izləyir və bunu revanşa cəhd kimi qiymətləndirir"

Abramyan bildirib ki, cəbhədə mövsümi xarakterdə aparılan mühəndis işlərinin aktivliyi istər-istəməz müxtəlif tipli kəskinləşməyə gətirib-çıxarır: "Azərbaycan bizim silahlı qüvvələrin daxili dislokasiyalarından tutmuş ön xəttdəki infrastruktur dəyişikliyindəki istənilən hərəkətləri izləyir və bunu revanşa cəhd kimi qiymətləndirir, eləcə də Ermənistan respublikasının siyasi güzəştlərə getməsindən asılı olmayaraq hakimiyyətə qarşı irəli sürülən tələblər artmağa başlayacaq.

Erməni müxalifətçi deputatı son olaraq qeyd edib ki, Azərbaycan daima xatırladır ki, müharibə hələ başa çatmayıb, eləcə də Ermənistan respublikasının siyasi güzəştlərə getməsindən asılı olmayaraq hakimiyyətə qarşı irəli sürülən tələblər artmağa başlayacaq.

Göründüyü kimi, hazırda ermənilərin ictimai-siyasi rəyində açıq-aşkar müharibə xofu yaranıb və yaxşı bilirlər ki, bu xof ta o zamana qədər onları izləyəcək ki, Azərbaycanın tələblərini tam icra edib yerlərini bilsinlər!

***Rövşən RƏSULOV***

# Sosial şəbəkələrdə qazilər üzərindən oyun quranlar....

*Qazi problemlərindən pul qazanan Əli Kərimli mənəviyyat tanımır*

**Deyir "qozbeli qəbir düzəldər", amma radikal müxalifət deyilən satqınlar "sülaləsini" görünür, bu 30 il ərzində qəbir də düzəldə bilməyib, bu gün xəyanət və riyakarlıq yolunu tutur. Azərbaycan müxalifətinin ən pis cəhətlərindən biri də budur ki, onlar ölkədə olan heç bir yaxşı şeyi görmürlər, eşitmirlər, demirlər. Niyə? Müxalif olmaq məgər ancaq pis şeyləri görmək, pis şeyləri eşitmək və pis şeyləri deməkdirmi?**

Ancaq bu cür oyunlara "dur!" deməyin vaxtıdır. Bunu da cəmiyyətimiz etməlidir. Sosial şəbəkələrdə qazilər üzərindən oyun quranlara cəmiyyət layiq olduqları cavabı verməlidir. Cəmiyyətimiz Əli Kərimli kimilərə qandırmalıdır ki, qazilərimiz, şəhid ailələrimiz sosial şəbəkə aləti deyil... Hacıbəyli, Qənimət Zəhid, Sevinc Osmanqızı, Vidadi İskəndərli və bu kimi manqurtlar bilməlidirlər ki, bu gün bütün şəhid ailələri və qazilər dövlət tərəfindən qayğı ilə əhatə olunub. Radikal müxalifət düşərgəsi və onların xaricdə məskunlaşmış Vətən satqınları AXCP sədri Əli Kərimli, antimilli şuraçılar Cəmil Həsənli və Gültəkin Hacıyeva, eləcə də ölkəmizə qarşı çirkin kampaniyalar aparmaqla ermənipərəst dairələrin dəyirmanına su tökməyə çalışırlar.




Bu, o satqınlardır ki, Vətən müharibəsində əldə olunan qələbəyə kölgə salmaq istədilər, ancaq xalq onları bir dəfəlik tarixin zibilliklər arxivinə atdı. Ancaq bunu anlamadılar. Və bu gün qazilərə "canıyananlıq" göstərmək istədilər. Beləlləri unudurlar ki, dövlətə, xalqa qarşı edilən xəyanətlər heç zaman bağışlanmır. Və özünü xalqa "canıyanan" göstərməyə çalışan AXCP sədri Vətən müharibəsi dövründəki fürsətcil mövqeyini arxa plana keçirib, bu dəfə də şəhidlərimizin, qazilərimizin kölgəsində uğursuz manipulyasiya həyata keçirməyə çalışsa da, onun danışdığı yalanlar bumeranq effekti ilə öz sifətinə çırpılır. Məsələn, Əli Kərimlinin əsassız iddialarının əksinə olaraq, şəhid ailələrinin, qazilərin, müharibə veteranlarının sosial problemlərinin həlli ilə bağlı genişmiqyaslı tədbirlərin həyata keçirilməsi, onlara verilən aylıq müavinətlərin dövlət başçısının müvafiq qərarı ilə artırılması, hətta müharibə iştirakçıları ilə bağlı ortaya çıxa biləcək hər hansı bir formal problemin operativ şəkildə öz həllini tapması üçün müvafiq komissiyanın yaradılması hər kəsə gün kimi aydındır.

Bu gün ölkəmizdə şəhid ailələrinin qarşılaşa biləcəyi hər hansı bir kiçik problemin belə həll edilməsi həm cəmiyyət, həm də dövlət olaraq əsas prioritetlərdən sayılır. Eyni zamanda, bu il ərzində minlərlə şəhid ailəsinə yeni mənzillərin verilməsi nəzərdə tutulur. Eləcə də şəhid olmuş qəhrəmanlarımızın övladlarına müvafiq müavinətlərin verilməsi, onlara xüsusi imtiyazların tanınması artıq təmin olunub. Belə olan halda bu reallığı Ə.Kərimli bilə-bilə xain xisləti nəyi etiraf edir? Bir də sosial şəbəkə "qəhrəmanları" Qələbə Zəfərimizdən keçən bu iki il ərzində hansı qazinin, yaxud şəhid ailəsinin problemi ilə maraqlanıb? Bütün bunlar bir daha onu göstərir ki, Vətən müharibəsində xalqın yanında yer almayanlar yeni yalanlar uydurmaqla siyasi səhnəyə qayıtmaq istəyirlər. Bu isə mümkün deyil! Ancaq Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun firavan yaşam tərzi dayanır və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə əhalinin sosial rifahının yüksəldilməsi, sosial infrastrukturun ən müasir standartlara uyğun qurulması istiqamətində məqsədyönlü siyasət həyata keçirilir. Xalq 19 ildir ki, Prezident İlham Əliyevin apardığı uğurlu siyasətinin şahididir. Dövlət başçımızın imzaladığı müvafiq sənədlər əsasında şəhid ailələrinin təqaüdü artırılıb, mənzillərlə təmin edilməsi yönündə addımlar atılmaqdadır.

Təəssüf doğuran odur ki, bu gün cəmiyyətdə qaziləri öz ətrafında cəmləmək, onların adından, nüfuzundan şəxsi ambisiyalarını, çirkin məqsədlərini həyata keçirmək üçün istifadə etməyə çalışan qüvvələr mövcuddur. Qazilərimiz bu məsələdə diqqətli olmalı, belə qüvvələrdən uzaqda durmalı, kimlərinsə onlardan istifadə etməsinə imkan verməməlidir. Əgər onlar hansısa problemlə üzləşiblərsə, bunun həlli üçün əlaqədar dövlət qurumlarına müraciət etməli, problemin qanuni şəkildə həlli üçün hüquqi imkanlardan yararlanmalıdırlar. Və qazilər onu da unutmamalıdırlar ki, irəli sürülən hər bir tələb, hər bir istək qanuna istinad etməli, qanuni olmalıdır. Bu, həmin tələbin reallaşması üçün ən başlıca amildir.

Belə ki, 2021-ci ildə 3000 mənzil təqdim edilib, postmüharibə dövründə isə 3500 mənzil verilib. Eyni zamanda, müharibə əlillərinə nəqliyyat vasitələrinin, bu kompleksdə daha 200 mənzilin, eləcə də 50 avtomobilin verilməsi nəzərdə tutulub və həssas təbəqədən olan bu kimi şəxslər bu günə qədər ümumilikdə 7 400 nəqliyyat vasitəsi ilə təmin ediliblər.

Göründüyü kimi, Əli Kərimlinin budəfəki "iddiaları" da qərəzli və əsassızdır. Sadəcə olaraq, AXCP sədri növbəti dəfə özünü "siyasi meydanda" saxlamaq, daha doğrusu, onu pulla təmin edən xaricdəki ermənipərəst dairələr qarşısında özünü "təsdiq etmək" üçün yenə də ortaya atdığı boş fikirlərlə gündəmə gəlməyə çalışır. Bu isə nə onun özünə, nə də ətrafındakılara heç bir siyasi dividend qazandırmayacaq. Çünki Azərbaycan xalqı onların əsl simasını yaxından tanıyır. Sosial istifadəçi gənclər Əli Kərimlinin antitəbliğat kampaniyasını pisləyərək, belələrinin cəzalandırılması tələbi ilə çıxış ediblər. Məsələn, Sevinc Abdullayeva qeyd edib ki, Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin adından danışmaq Əli Kərimliyə düşməz: "Çünki bu satqının təmsil olunduğu hakimiyyətin sayəsində ermənilər torpaqlarımızı işğal etdilər, Qarabağ boyda dərdi bizim üçün yaratdılar. Ar olsun...". Azərin Rəşidova adlı istifadəçi yazıb ki, bu antimilli ünsür üçün Vətən, dövlət və xalq anlayışı yoxdur: "Onun üçün əsas xaricdən gələn qrantlar və ölkəmizdə qarışıqlığın yaradılmasıdır. Sənin nə işin var qazilərlə, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri ilə? Onsuz da bu ölkəyə çox zərbələr vurmusan".

Göründüyü kimi, bir sözlə, cəmiyyətimizin həssas təbəqəsi olan Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək antitəbliğat aparmağa cəhd edən Əli Kərimlini elə bu kateqoriyadan olan insanlar, Vətənini sevən gənclər peşman etdilər. Sosial şəbəkələrdən istifadə edən ictimaiyyət nümayəndələri bu dəfə də dövlətin yanında olduqlarını, cənab Prezident İlham Əliyevin siyasətini dəstəklədiklərini sübut etdilər. Bu fakt özlüyündə bir daha həm Əli Kərimli kimi radikal müxalifət, həm də onlara himayədarlıq edən antiazərbaycan dairələri üçün şillə kimi cavab oldu.

Bəli, nəhayət ki, bu cür oyunlara dur demək lazımdır. Bunu da cəmiyyətimiz etməlidir. Sosial şəbəkələrdə qazilər üzərindən oyun quranlara layiq olduqları cavabı verməlidir. Çünki Əli Kərimli kimilər o qədər azğındırlar ki, məqsədləri üçün, hətta qaziləri, şəhid ailərini də təhqir edərlər. Təki, qrant, ianə qazansınlar... Çünki Qazi problemlərindən pul qazanan Əli Kərimli mənəviyyat tanımır.

***Rəfiqə HÜSEYNOVA***

## "Dövlətə və xalqımıza ziyan vuracaq, gözdən salacaq ifadələrə yol vermək olmaz"

"Son illər Azərbaycanın nüfuzu dünyada artmaqdadır. Xüsusilə, 44 günlük Vətən müharibəsi nəticəsində möhtəşəm qələbəmiz Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli artırıb". Bunu "Səs" qəzetinə açıqlamasında Təkamül Partiyasının sədri Teyyub Qənioğlu deyib.




Onu sözlərinə görə, bu da təbii ki, bədxahlarımızı narahat edir: "Ümumiyyətlə, elə bir ölkə tapılmaz ki, orada çatışmazlıq olmasın. Təbii ki, müxalifətin də missiyalarından biri ölkədə mövcud olan çatışmazlıqları tənqid etmək, bir sözlə, burada bir nöqsan varsa, onu tənqid etməlidirlər. Yəni, Azərbaycan haqqında reallığı özündə əks etdirməyən fikirləri səsləndirmələri düzgün bir hal deyil. Azərbaycanı gözü götürməyən qüvvələr var. Həmin qüvvələrin də işi gücü, ancaq Azərbaycan dövlətini nüfuzdan salmaqdır. Həmin qüvvələrin də Azərbaycanda ruporları var. Sən azərbaycanlısan, hansısa səbəbdən və yaxud kimdənsə inciyib getmisən xaricə, bunu bildik. Yəni, sən kimdən incimisənsə və yaxud sənə kim haqsızlıq edibsə, onları göstər və tənqid et. Amma nəzərə almaq lazımdır ki, hər hansı bir tənqid dövlətin, millətin maraqlarına toxunursa, bundan qaçmaq lazımdır. Yaxşı olardı ki, onlar bu cür xoşagəlməz hərəkətlərindən əl çəksinlər. Belə bir atalar misalı var: "Pulunu kim verirsə, musiqini də o sifariş edir". Demək olar ki, bu cür hərəkətlərə əl atan şəxslər xaricdən maliyyələşirlər və bu maliyyənin müqabilində də istədikləri tapşırıqları verirlər. Bir daha qeyd etmək istəyirəm ki, dövlətə və xalqımıza ziyan vuracaq, gözdən salacaq ifadələrə yol vermək olmaz. Çünki bu, düzgün deyil. Bir sözlə, dövlətin millətin maraqları daimidir və hər şeydən üstündür. Allah onlara ağıl versin, bu cür hərəkətlərindən əl çəksinlər".

***Gülyana***

## Ruslar Alyaskanı geri qaytarırlar..?

Amerikanın "The Hill" onlayn nəşrində çıxış edən Amerika əsilli kanadalı jurnalist Diane Francis guya Alyaskanın Rusiyaya qayıtması üçün yalnız bir şərt olduğunu bildirib. SİA bu barədə rus saytlarına istinad edir.



Son illər Rusiyanın Arktikanın inkişafına ciddi diqqət yetirməsindən narahatlığını ifadə edən Frensis ABŞ-ın uzun illər Arktikaya məhəl qoymadığını və Moskvanın orada özünü ciddi şəkildə gücləndirməsinə icazə verdiyinə də diqqət çəkib.

Ərazisi az qala ABŞ-ın yarısı qədər olan donmuş Şimal Buzlu Okeanı uzun müddətdir diqqətdən kənarda qalıb, deyən Frensis, Kanadanın şimalında praktiki olaraq yaşayışın olmadığını xatırladıb. Məhz buna görə, hökuməti 1980-ci illərdə Arktikada aşkar edilmiş nəhəng neft və qaz ehtiyatlarının işlənməsini əngəlləyib.

Və Rusiyanın şimal sahilləri, əksinə, daha yaxşı inkişaf edib: yeni şəhərlər və üzən nüvə reaktorları yaradılıb. Rusiya buralarda hətta neft kəşfiyyatına da başlayıb və onun sualtı kontinental şelfinin Şimal Buzlu Okeanın böyük hissəsinin altında uzandığını iddia edir.

Francis bildirib ki, Alyaskanın Rusiyaya qayıtması üçün yalnız bir şərt var. "Bu, cəhənnəm donduğu zaman baş verəcək".

Bundan əvvəl Şimali Amerikanın Aerokosmik Müdafiə Komandanlığı Alyaska yaxınlığında qeydə alınan Rusiya təyyarəsi ilə bağlı üçüncü hadisəni elan edib. Komandanlıq, avqustun 8-dən 10-a kimi Rusiyaya məxsus hərbi təyyarənin Alyaskanın Hava Hücumundan Müdafiə Tanıma Zonasında uçuş həyata keçirdiyini bildirib.

***Ağasəf Babayev***

# Rus ekspert: “Qərb dövlətləri erməni mövqeyini fəal şəkildə müdafiə edir”

Aleksey Naumov: “Ermənistan Azərbaycan ərazilərini, o cümlədən Laçını işğal etmişdi. Evləri yandırsanız da, yandırmasanız da başqasının torpağını qaytarmalısınız”



Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov ”Moskva-Baku” portalına müsahibəsində Ermənistan-Azərbaycan nizamlanması ətrafında vəziyyət və son tendensiyaları haqqında fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- İyul və avqust aylarında Ermənistan-Azərbaycan istiqamətində vəziyyət gərgin keçdi desək, bəlkə də, mübaliğə olmaz. Əliyevin iyul ayında üçtərəfli bəyanatın icrasında, münasibətlərin normallaşmasında müsbətdən çox mənfi cəhətlərin olduğunu, iyunun sonuna kimi Ermənistan Silahlı Qüvvələrinin Qarabağdan çıxarılması ilə bağlı razılaşmaların olduğunu, lakin bunun həyata keçirilmədiyini söyləməsi də yadımızdadır. Avqust ayında hərbi gərgin lik qeydə alınıb - erməni birləşmələri tərəfindən atəşə tutulduqdan sonra Azərbaycan əsgərinin həlak olması və Azərbaycanın buna "Qisas" əməliyyatı ilə cavab verməsi. Hazırda erməni silahlılarının sentyabra qədər Qarabağdan çıxarılacağı güman edilir. Belə ki, ən azı, rəsmi Yerevan belə bəyan edib. Ötən aylarda hansı problemlər kəskinləşib və bundan hansı nəticələr çıxarılmalıdır?***

- Buradan əsas siyasi nəticə belə çıxır ki, istənilən dondurulmuş münaqişə, həlli gələcək perspektiv üçün təxirə salınan münaqişə yalnız bu münaqişənin hər iki tərəfinin siyasi, iqtisadi və hərbi güc baxımından bərabər olması şərtilə donmuş vəziyyətdə qala bilər.

Biz görürük ki, Azərbaycan-Ermənistan məsələsində hər cəhətdən daha güclü tərəfi təmsil edən Azərbaycan münaqişənin tezliklə həllində israrlıdır. Ermənistan gah silahlı birləşmələrin Qarabağdan çıxarılmaması da daxil olmaqla üçtərəfli sazişləri lazımınca yerinə yetirməməklə, gah da hərbi istiqamətdə təxribatlarla daim Azərbaycanı provakasiyaya çəkir. Azərbaycan isə normallaşma prosesinin donmasına imkan vermir. Mütəmadi olaraq həll olunmamış məsələlərin olduğunu, vəziyyətin həll olunmadığını xatırladır. Azərbaycan prosesin sönməsinə imkan vermir, çünki bu, öz maraqlarına uyğundur və tərəfləri üçtərəfli bəyanatın icrasını davam etdirməyə təşviq etmək üçün alətlərə malikdir.

Problemlərin məhz bu kəskinləşməsi son nəticədə həllə, razılaşmaların həyata keçirilməsinə doğru hərəkəti stimullaşdırır. Dondurulmuş normallaşma prosesdə bütün tərəflərin minimal iştirakını tələb edir. Mövzunu oyatmayın və hər şey boşa çıxacaq. Əgər biz Cənubi Qafqazda sülh istəyiriksə, buna yol vermək olmaz. Prezident İlham Əliyevin son bəyanatında qeyd olunub ki, üçtərəfli bəyanatın icrasında müsbətdən çox mənfi cəhətlər var. Bu, müəyyən dərəcədə təbiidir, çünki açıq-aydın, ilk növbədə ən sadə məsələlər həll edilir, sonraya qoyulan məsələlər isə tərəflərin daha fəal işlənməsini tələb edir, çünki onlar daha çətindir və onların həlli, bir qayda olaraq, biri üçün daha ağrılıdır.

Əslində, nizamlanmada hər şeyin pis olduğunu söyləmək olmaz. Bütövlükdə vəziyyət öz məntiqi nəticəsinə - Azərbaycanın bütün torpaqlarının Bakının nəzarətinə qaytarılmasına yaxınlaşır.



***- Məlumat var idi ki, guya Əliyevlə Paşinyan arasında görüş hazırlanır. Görünür, Rusiya-Azərbaycan-Ermənistan formatında. İclasda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı ən kəskin məsələlərə baxıla bilər...***

- Prezident Əliyevlə Paşinyan görüşünə gəlincə, iki ölkə liderlərinin görüşünə adətən iki halda ehtiyac duyulduğu göz qabağındadır. Birinci variant- hansısa diplomatik sıçrayış etmək və bu irəliləyişə nail olmaq üçün tabeçiliyində olanlara çoxsaylı tapşırıqlar vermək lazım gələndə və ya ikinci variant- uzun zəhmətdən sonra konkret razılaşmaları kağız üzərində təsbit etmək zərurəti yarananda.

Qarşıdakı potensial görüş, hələlik, heç bir irəliləyiş göstərməyən məsələlərdə irəliləyiş üçün güclü stimul ola bilər. Bəli, biz bir neçə aydır ki, sərhədin delimitasiyası, demarkasiyası, qeyri-qanuni birləşmələrin Qarabağdan çıxarılması, nəqliyyat və iqtisadi əlaqələrin - Zəngəzur dəhlizinin açılması məsələlərini müzakirə edirik. Düşünürəm ki, görüşə qədər, əgər bu, yaxın vaxtlarda baş tutsa, konkret qərarlar qəbul edilməlidir. Və aydındır ki, hazırda qarşıda duran ən kəskin məsələ erməni birləşmələrinin çıxarılması, delimitasiya və demarkasiyadır. İstənilən halda, yenidən irəliləyiş olmasa, Azərbaycana razılaşmaların həyata keçirilməsinin zəruriliyinin bir daha xatırladılması vacib olacaq.

Görüşün üçtərəfli formatda - Putin-Əliyev-Paşinyan formatında keçirilməsi vacibdir. Yenə də Rusiyanın Ermənistana təsir rıçaqları var və Moskva üçün Cənubi Qafqazda sülh sazişləri və normallaşmanın mümkün qədər tez əldə edilməsi həmişə vacibdir. Bu gün beynəlxalq vəziyyət fonunda bu məsələ Rusiyanın təhlükəsizliyi baxımından daha aktualdır.

***- Azərbaycan Qarabağdakı qanunsuz birləşmələri qısa müddətdə təmizləyə, əməliyyatı başa çatdıra bilərdi. Amma etmir, niyə?***

- Bəli, Azərbaycan bunu edə bilərdi. Amma cənab Əliyev, şübhəsiz ki, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı üçtərəfli sazişlərlə bağlı verdiyi sözə sadiqdir. Cənab Əliyevin özü və Azərbaycan üçün beynəlxalq reputasiya məsələsi çox vacib məsələdir. Möhtərəm ölkənin hörmətli prezidenti sözünün üstündə durur. Bu, belə olmalıdır. Eyni zamanda başa düşürük ki, Qarabağda separatçıların nəzarətində qalan torpaqlar məsələsində əhali faktoru var. İndi bu ərazilərdə etnik erməni əhali yaşayır. Və məsələ güc yolu ilə həll olunarsa, Azərbaycan üçün vəziyyəti imic baxımından çətinləşdirəcək bir sıra problemlər yarana bilər. Ona görə də Əliyevin dəfələrlə dediyi kimi, bütün məsələlərin diplomatik yolla həlli prioritetdir. Ona görə də Azərbaycan müntəzəm olaraq Ermənistana sülh əlini uzadır, üçtərəfli bəyanat çərçivəsində Ermənistanın üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə səbirlə çağırır. Amma ekstremal hallarda erməni tərəfinin təxribatçı hücumlarını cavabsız qoymur.

Bildiyimiz kimi, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan ərazilərinin böyük hissəsini hərbi yolla geri qaytardı. Və o, bəzi marjinal dairələr istisna olmaqla, dünya ictimaiyyətinin heç bir qınağına məruz qalmayıb. Heç kim Azərbaycana qarşı heç bir sanksiya tətbiq etməyib, heç kim qınamayıb və heç kim hər hansı cəza ilə hədələməyib. Mənə etiraz edə bilərsiniz- hansı sanksiyalar, çünki Azərbaycan öz ərazilərini qaytarırdı, beynəlxalq hüquq çərçivəsində addımlar atırdı. Əgər Azərbaycan özünü başqa cür aparsaydı, o zaman elə ölkələr, beynəlxalq strukturlar olardı ki, biz onlardan belə eşidəcəkdik: ”Bəli, Azərbaycan öz ərazisini qaytarır, amma bu iş qəddarlıqla edilir, mülki əhali əziyyət çəkir, gəlin ona sanksiyalar tətbiq edək”.

Açığını deyim ki, Qərb vaxtaşırı Azərbaycanı tənqid edir, buna sübut, məsələn, Avropa Parlamentinin müxtəlif anti-Azərbaycan qətnamələridir - ya Azərbaycanın ”siyasi sistemi kifayət qədər etibarlı deyil”, ya da ”insan haqlarına kifayət qədər hörmət edilmir”. Və ona görə də Qərb üçün bunu demək çox asan olur - Azərbaycan özünü pis aparır, gəlin sanksiyalar tətbiq edək. Amma bu, Əliyevin diplomatiyası sayəsində baş tutmadı. Amma biz başa düşürük ki, ilkin olaraq Qarabağ nizamlanmasında iştirak edən Qərb dövlətləri- ABŞ, Fransa daha çox Qarabağda yaşayan ermənilərin məsələsini həll etməklə, erməni mövqeyini fəal şəkildə necə lobbiçilik edir. İkinci Qarabağ müharibəsindən sonra Vaşinqton və Parisin bu istiqamətdə fəallığını müşahidə etdik.

Ona görə də Ermənistanın nəzarətində qalan ərazilərin zorla təmizlənməsi potensial olaraq qalmaqala səbəb ola bilər, Qərb mediası bunu həddi aşmaq kimi təqdim edə bilər. Bu isə Azərbaycanın imicinə o qədər də yaxşı deyil. Baxmayaraq ki, rəsmi Bakı müntəzəm olaraq Qarabağda yaşayan erməniləri Azərbaycan pasportları, Azərbaycan Respublikasının digər vətəndaşları kimi tam təhlükəsizlik, hüquq və azadlıqlarla bərabər əsaslarla təmin etməyə hazır olduğunu bildirir. Bu, təbii ki, hərbi cinayətkarlara aid deyil.

***- Azərbaycan üçtərəfli bəyanata uyğun olaraq artıq Laçın dəhlizinə alternativ yol çəkib. Erməni əhalisi avqustun 25-dək Laçını və Laçın rayonunun bir sıra kəndlərini tərk etməlidir. Erməni əhalisi yenidən evləri yandırır... Təbii ki, erməni müxalifəti bunu beynəlxalq ictimaiyyətə az qala soyqırımı, hüquqların tapdalanması kimi təqdim edir... Bunun fonunda ötən gün Laçında minalanmış ərazilər aşkar edilib, Məlumatlara görə, bu minalanma İkinci Qarabağ müharibəsindən sonra baş verib...***

- Bu insanlar Azərbaycan ərazilərində yaşamaq istəyirlər, amma separatçı strukturun bir hissəsi kimi. Və mövqelərini qorumaq üçün addımlar atırlar. Buna baxmayaraq, aydındır ki, belə bir ssenarinin gələcəyi yoxdur və ola da bilməz. Bu, üçtərəfli bəyanatın şərtlərinə ziddir. Bunun ”soyqırım” kimi təqdim olunması isə sadəcə olaraq siyasi alətdir, alətdir, o cümlədən informasiya təsiridir, reallığın təhrifidir. Axı Ermənistan tərəfi Azərbaycan ərazilərini, o cümlədən Laçını işğal edib. Beləliklə, evləri yandırsanız da, yandırmasanız da başqasının torpağını qaytarmalısınız.

***- Ötən gün Ermənistanda radikallar dedilər ki, guya Rusiya İrəvanda ticarət meydançasında partlayış hazırlayıb. Bunun ardınca Rusiya səfirliyinin etiraz notası və rəsmi İrəvanın buna hansısa formada reaksiya verməsi yaxşı olardı. Lakin İrəvan buna reaksiya vermədi. Bunun fonunda son günlər İrəvanda hava limanının, metrosunun, hava limanının və Gümrüdəki dəmiryol vağzalının "minalanması" ilə bağlı ardıcıl yalan məlumatlar peyda olur. Nə baş verir?***

- Bunun Ermənistan-Azərbaycan arasında normallaşma prosesi ilə müəyyən əlaqəsi var. Ermənistandakı revanşist müxalifətin, radikalların qətiyyən bəyənmədiyi normallaşma ilə bağlı İrəvan və Bakı konkret qərarların əldə edilməsinə nə qədər yaxınlaşırsa, Ermənistandakı bu revanşist qüvvələr bir o qədər ölkədəki vəziyyəti sarsıtmağa çalışırlar. O cümlədən hədə-qorxu. Ermənistanda partiyaların bir-birinə qarışdığı bir vaxtda vəziyyət qeyri-sabitdir. Bundan əlavə, radikal millətçilik ideologiyası onilliklər ərzində cəmiyyətin düşüncəsini dəyişidirib. Ermənistandakı radikalların anti-Rusiya bəyanatları təbii ki, həm Rusiya, həm də Ermənistan arasında lüzumsuz gərginlik yaradır və Cənubi Qafqazda sakitləşmə prosesinə təsir edir. Paşinyan Rusiyanın radikalları öz yerinə otuzdurmaq çağırışına niyə cavab vermədi? Hələ də o, radikallara meydan oxuyaraq birbaşa bəyanatlar verməkdən qorxur, devrilməkdən qorxur. Amma Paşinyan bu gün Ermənistanda lider üçün ən yaxşı variantdır, çünki o, Rusiya və Azərbaycanla üçtərəfli bəyanat imzalayıb və o, hələ də, heç olmasa, sülh yolu ilə gedir.

**Tərcümə - Elçin Bayramlı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb*

SON SƏHİFƏ
SƏS
23 avqust
2022-ci il

*XƏBƏRDARLIQ:*
## Planşetə və televizora baxaraq yemək yemək uşaqlarda piylənmə yaradır



Uşaqlar planşet və ya televizora baxaraq yemək yeməyə çalışırlar. Bu vəziyyət gələcəkdə həm ekran asılılığına, həm də piylənməyə səbəb ola bilər. Uşaqların sağlam böyüməsi üçün bu cür vərdişlərdən uzaq durmağı vacibdir. Bunu türkiyəli pediatriya mütəxəssisi professor Onur Yılmaz deyib.

Professor, həmçinin qeyd edib ki, "Böyümənin monitorinqi dinamik bir prosesdir və pediatrlar üçün zəruridir. Xüsusilə uşaqlarda hər hansı problemin diaqnozunu qoya və xəbərdar ola bilmək üçün böyümə, çəki və boyatma dəyərləri mütəmadi olaraq ölçülməli və qiymətləndirilməlidir. Böyümə, hüceyrə ölçüsü və say artımı bədənimizin həcm və kütlə qazanmasıdır. İnkişaf edən hüceyrə və toxumaların funksionallaşması, zehni funksiyaların artması ilə yanaşı, dil inkişafı da vacib amillərdəndir. Böyümə təqibi bizə uşaqların sağlamlığı haqqında məlumat verir. Xüsusilə yeni doğulan dövrdən 18 yaşın sonuna qədər uşaqları müayinə edirik".

"Hürriyet" nəşrinin yazdığına görə, uşaqların planşet və televizora baxaraq qidalanması halı onların gələcək sağlamlığı üçün ciddi təhlükə yaradır. Ailələrə xəbərdarlıq edən O.Yılmaz "Uşaqlar daim yeməyə təşviq edilməli, lakin heç vaxt zorla yeməyə məcbur edilməməlidir. İlk olaraq onlara bəyəndikləri yeməklər verilməli, bəyənmədikləri yeməklərin isə faydaları izah edilərək tədricən dadılmalıdır. Yeməklər müəyyən miqdarda olsun. Valideynlərin ən çox etdiyi səhvlərdən biri də uşaqların planşet və ya televizora baxaraq yemək yeməsinə imkan yaratmasıdır".

## Gündə neçə stəkan çay içməliyik?



**"Sudan sonra ən çox içilən içki çaydır. Xüsusilə də ölkəmizdə vazkeçilməz içkilərdəndir". Bu fikirləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib.**

Onun sözlərinə görə, araşdırmalar sağlam qidalanma ilə yanaşı, çay içməyin bəzi beyin funskiyalarını yaxşılaşdırdığını, yaxşı xolesterini artıraraq ürək-damar xəstəliklərinə qarşı qoruyucu təsir göstərdiyini ortaya qoyur: "Qara və yaşıl çay ən məşhur çaylardandır. Hər iki çay növü də daha aşağı qan təzyiqi və daha yaxşı ürək sağlamlığı ilə əlaqəli olan kafein və polifenollar adı verilən antioksidantlarla yüklüdür. Bəzi kiçik fərqlər var. Məsələn, qara çay daha çox kafein ehtiva edir, yaşıl çay daha yaxşı bir antioksidantdır. Ancaq çayın tərkibinə şəkər və ya başqa qatqılar əlavə olunarsa, çayın faydası azalır.

Çay tərkibindəki kafein miqdarına görə idmandan öncə içilməsi tövsiyə olunur. Səhər ən tez 10:00 - 11:00 arası qəbulu daha faydalıdır. Yeməklərdən bir neçə saat sonra və yeməklər arası içilə bilər. Xüsusilə, dəmir kimi qida birləşmələrinin sorulmasına mane olmaması üçün yeməkdən dərhal sonra içmək olmaz. Kafein tərkibi səbəbi ilə yuxunu qaçırmaması üçün ən gec iki saat əvvəl içmək lazımdır. Gündə 3-4 stəkan çay içmək yeterlidir".

***Abutel İlhamqızı***

## Bakıda qadının "Range Rover"i oğurlandı

**Bakıda qadına məxsus bahalı avtomobil oğurlanıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən məlumata görə, hadisə paytaxtın Yasamal rayonu ərazisində baş verib. Avqustun 20-də bir qadına məxsus "Range Rover" markalı avtomobilin qaçırılması barədə məlumat daxil olub. Yasamal RPİ 28-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən E.Məmmədov saxlanılıb.**



## Keçmiş məhkum Bakıda 8 evdən oğurluq edib



**Bakıda evlərdən oğurluq edən şəxslər tutulublar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Xəzər Rayon Polis İdarəsinin 3-cü polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisindəki ayrı-ayrı şəxslərə məxsus səkkiz evdən müxtəlif vaxtlarda 1207 manat, 900 ABŞ dolları, 6770 manat dəyərində qızıl və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Ağstafa rayon sakini əvvəllər məhkum olunmuş M.Alıyev saxlanılıb.**

Həmin rayon ərazisində bir evdən 240 manat pul və 500 manat dəyərində qol saatı oğurlamaqda şübhəli bilinən Cəlilabad rayon sakini, əvvəllər məhkum olunmuş Z.Ordiyev rayon polis idarəsinin 1-ci polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində yaxalanıb.

Suraxanı Rayon Polis İdarəsinin 30-cu polis şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində isə Binə qəsəbəsində iki evdən 1905 manat dəyərində sərinkeş, qaynaq aparatı, 3000 manat dəyərində təmir alətləri və elektrik naqili oğurlamaqda şübhəli bilinən Ç.Kərimov tutulub. Hər üç faktla bağlı təhqiqat davam edir.

### ELAN

Şamaxı rayon Aqrar İslahatı Komissiyası tərəfindən Səmiyeva Gülbacı Əbil qızının adına verilmiş rayonun Çuxuryurd kəndində yerləşən torpaq sahəsinə aid JN 441 A kod 41017018 torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**